Sərhədyanı rayonlara xüsusi diqqət

Səhifə 3-də

Xəstəxanalarımız təhlükə ilə üz-üzə

Səhifə 12-də

Cəlbedici və dadlı olsa da, təhlükəlidir

Səhifə 13-də

Daha 50 kənd qazlaşdırılacaq

Səhifə 2-də

Ukrayna Azərbaycana minnətdardır

Səhifə 2-də

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

ÜÇ ƏSRİN QƏZETİ

Kaspi

12 AVQUST ŞƏNBƏ 2023 | 29 (4131) Qiyməti - 40 qəpik www.kaspi.az

SEPARATÇILARIN SÜLH İSTƏMƏDİKLƏRİ ÇILPAQLIĞI İLƏ ORTAYA ÇIXIR

RAZILIQLAR SON ANDA POZULUB

Separatçıların “humanitar yardım” şousu ilə bağlı yeni faktlar ortaya çıxıb. Onlar “Ağdam-Xankəndi” yolundan istifadəyə dair əldə olunmuş razılığı son anda pozmaqla, dialoqda maraqlı olmadıqlarını bir daha nümayiş etdiriblər.

AĞDAM YOLU İLƏ BAĞLI RAZILAŞMA OLUB

XİN-in Mətbuat Xidməti idarəsinin rəisi Ayxan Hacızadənin sözlərinə görə, son günlər ərzində beynəlxalq tərəfdaşların səyləri nəticəsində “Ağdam-Xankəndi” yolundan BQXK tərəfindən yüklərin daşınması üçün istifadə olunması və bundan 24 saat sonra Laçın yolundan BQXK vasitəsilə keçidin daha da intensivləşməsinə dair razılıq mövcud idi.

ERMƏNİ XİSLƏTİ YENƏ ÖZÜNÜ GÖSTƏRİB

“Bununla yanaşı, Yevlaxda Azərbaycan tərəfinin nümayəndələri ilə Qarabağda yaşayan erməni sakinlərin nümayəndələri arasında görüşün keçirilməsi razılaşdırılmış və bütün logistik məsələlər yekunlaşmışdı. Bütün bu razılıqlara baxmayaraq, erməni sakinlərin nümayəndələri razılıqları son anda pozub.

SƏHİFƏ 2-DƏ

XƏYALLARI GERÇƏK OLAN XANIM TƏLƏBƏ

Masallıdan “Harvard”a UZANAN YOL

Nərgiz Məmmədova 21 sentyabr 1998-ci ildə dünyaya gəlib. Orta təhsilini Masallı rayonu, Rasim Əliyev adına Mollahəsənli kənd tam orta məktəbində alıb. İqtisadiyyat fakültəsi üzrə bakalavr təhsilini 2015-2020-ci illərdə ADA Universitetində, ilk magistratura təhsilini isə 2020-2022-ci illərdə Rusiyanın Milli Tədqiqat Universiteti Ali İqtisadiyyat Məktəbində “Economics-Research Program”ı üzrə alıb.

SƏHİFƏ 6-da

QAZAXISTAN RUSİYADAN UZAQLAŞMAQ İSTƏYİR

Qazaxıstan Rusiyanın məruz qaldığı sanksiyalardan ziyan çəkməməyə çalışır. Rusiya isə qonşusunun bu müstəqil addımlarını, Ukraynanın ərazi bütövlüyünü tanımasını həzm edə bilmir.

SƏHİFƏ 7-də

İSTİRAHƏT ZAMANI İTKİN DÜŞƏNLƏR

İstər xarici, istər daxili səfərlər zamanı istirahətə gedərkən bəzi məqamları nəzərə almaq lazımdır. Turistlər öncə gedəcəkləri yerin təyinatını, spesifik xüsusiyyətlərini araşdırmalı, sonra qərar verməlidirlər.

SƏHİFƏ 10-da

BUNUN NƏYİ VAHİD FORMA OLUR?

Ölkə üzrə vahid məktəbli formalarının satışı artıq başlayıb. Hər il olduğu kimi bu dəfə də valideynlər tərəfindən müəyyən narazılıqlar ifadə edilir. Tikiş fabrikləri isə qıtlıq və problem yaşanmayacağını iddia edirlər.

SƏHİFƏ 14-də

BARIT QOXUSUNDAN AZAD FÜZULİ

İşğaldan azad olunmuş torpaqlarımıza dinc həyat geri qayıdır. Füzuli də çiçəklənən bir guşəyə çevrilir. Buradan barıt qoxusu çəkilməkdə, çiçəklərin xoş rayihəsi qayıtmaqdadır. İndi boş görünən küçələrdən uşaq səsləri eşidiləcək.

SƏHİFƏ 5-də

ZIĞ GÖLÜNÜN BƏRPASI NİYƏ YUBANIR?

Bərpasına dair hələ 2014-cü ildə imzalanmış iki sərəncam olsa da, Zığ gölü ilə bağlı vəziyyət doqquz ilə yaxındır ki, dəyişmir. Cavabdeh qurumlar isə, artıq layihənin yekunlaşmaq mərhələsində olduğunu deyirlər.

SƏHİFƏ 11-də

“AZƏRBAYCANIN XALQ ARTİSTİ KİMİ GƏLMİŞƏM”

Nəsibə Abdullayeva: “40 ildən çoxdur ki, Azərbaycan mahnılarını ifa edirəm. Bu mahnıları ifa edərkən heç vaxt hər hansı bir mükafat haqqında düşünməmişəm. Bu musiqilər doğulduğum gündən dilimdədir”.

SƏHİFƏ 15-də

PAŞİNYAN RUSİYA VƏ QƏRBDƏN NƏ İSTƏYİR?

Onun açıqlamaları ilə gah nala, gah da mıxa vurması adət halını alıb. Son vaxtlar sərhəddə baş verənlərdə də bu hal müşahidə olunur.

SƏHİFƏ 4-də

DÖYÜŞƏ MARAĞIMIZ GÜNBƏGÜN ARTIR

Azərbaycanda qarışıq döyüş növlərinin böyük potensialı var. Ən azı ona görə ki, bu idman növlərində ölkəmiz beynəlxalq yarışlarda, adətən, uğurlu nəticələr əldə edib.

SƏHİFƏ 16-da



“MÜĞƏNNİLƏRİN 90 FAİZİ NƏ İSTƏDİYİNİ BİLMİR”

Tərlan Məmmədhüseynov: “Hər gün toya getdiyim üçün gün ərzində 6-7 saat musiqi ilə məşğul olmuşam. Ən böyük imtahanı həmin toylarda vermişik”.

SƏHİFƏ 8-9-da

AZƏRBAYCAN İQTİSADİYYATI BÖYÜYÜB

Bu ilin yanvar-iyul aylarında Azərbaycanda 70 milyard 372,2 milyon manatlıq və yaxud 2022-ci ilin eyni dövrü ilə müqayisədə 0,7% çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. "Report" bu barədə Dövlət Statistika Komitəsinə istinadən xəbər verir. Məlumata görə, son 1 ildə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,2% azalıb, qeyri-neft-qaz sektorunda isə 3,4% artıb. ÜDM istehsalının 42,8%-i sənaye, 9,4%-i ticarət, 17,7%-i digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,2%-ni təşkil edib. İl ərzində ölkədə adambaşına düşən ÜDM-in dəyəri isə 5,9% azalaraq 6 939 manata düşüb.

DAHA 50 KƏND QAZLAŞDIRILACAQ

Bu ilin sonuna qədər Azərbaycanda əlavə daha 50 kənd və massivin qazlaşdırılmasına başlanılması nəzərdə tutulub. "Report"un məlumatına görə, bunu Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) "Azəriqaz" İstehsalat Birliyinin Yeni Qazlaşma və İnkişaf şöbəsinin rəhbəri Teymur Cəfərov avqustun 11-də keçirilən "Açıq qapı" aksiyasında bildirib. Onun sözlərinə görə, bu ilin yanvar-iyul aylarında ölkədə artıq 90-a yaxın yaşayış məntəqəsi və yeni yaşayış massivində paylayıcı küçə xətlərinin və daşıyıcı qaz xətlərinin çəkilməsi işləri davam etdirilib.

T.Cəfərov qeyd edib ki, hazırda ölkə ərazisində qazlaşdırılma səviyyəsi 96,3% təşkil edir: "Bu, kifayət qədər yüksək göstəricidir.

UKRAYNA AZƏRBAYCANA MİNNƏTDARDIR

Müharibə dönəmində Azərbaycan Ukraynaya humanitar yardımlarını davam etdirir. Bu dəstəyə görə, Azərbaycan dövlətinə, Prezident İlham Əliyevə təşəkkür edirəm.

Bunu Ukraynanın daxili işlər nazirinin müavini Boqdan Drapyatıy Azərbaycanın bu ölkədəki səfiri Seymur Mərdəliyevlə görüşündə söyləyib. Onun sözlərinə görə, Ukrayna Azərbaycanın bu yardımlarını yüksək qiymətləndirir. "Bu, münasibətlərimizin strateji xarakterinin daha bir göstəricisidir", - deyə nazir müavini vurğulayıb. Azərbaycanın göstərdiyi humanitar yardımlar haqqında məlumat verən səfir S.Mərdəliyev, öz növbəsində qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyev Ukrayna dövlətinə elektrik avadanlıqları üçün 7,6 milyon dollar ayrılması haqqında Sərəncam imzalayıb.

RAZILIQLAR SON ANDA POZULUB

İrəvan və Xankəndidəki separatçı rejim qalıqlarının "humanitar yardım" şousu ilə bağlı iddialarını puç edən yeni faktlar ortaya çıxıb. Onlar "Ağdam-Xankəndi", Laçın yolundan istifadəyə dair əldə olunmuş razılığı son anda pozmaqla, dialoqda maraqlı olmadıqlarını bir daha nümayiş etdiriblər.

Ermənistan rəhbərliyi və separatçıların Azərbaycana qarşı "humanitar yardım" şousu davam edir. İrəvan bu məsələdən sülh danışıqlarından yayınmaq və vaxtı uzatmaq, separatçılar isə "etnik təmizləmə, soyqırımı, blokada" kimi əsassız ittihamlarla reinteqrasiya prosesini ləngitmək və özlərinə "nəfəslik" açılmasına nail olmaq üçün yararlanmağa çalışır.

SÜLH İSTƏMƏDİKLƏRİ ÇILPAQLIĞI İLƏ ORTAYA ÇIXIR

Humanitar yüklərin daşınması ilə bağlı aparılan müzakirələr və əldə olunan razılaşmaların açıqlanan detalları bir daha ermənilərin əslində sülh istəmədiklərini çılpaqlığı ilə ortaya qoyur.

Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti idarəsinin rəisi Ayxan Hacızadənin sözlərinə görə, son günlər ərzində beynəlxalq tərəfdaşların səyləri nəticəsində "Ağdam-Xankəndi" yolundan Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən yüklərin daşınması üçün istifadə olunması və bundan 24 saat sonra Laçın yolundan BQXK vasitəsilə keçidin daha da intensivləşməsinə dair razılıq mövcud idi.

"Bununla yanaşı, Azərbaycan tərəfinin təklifi əsasında Yevlaxda Azərbaycan tərəfinin nümayəndələri ilə Qarabağda yaşayan erməni sakinlərin nümayəndələri arasında görüşün keçirilməsi razılaşdırılmış və bütün logistik məsələlər yekunlaşmışdı.

Bütün bu razılıqlara baxmayaraq, Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri razılıqları son anda pozub.

Onların və bu mövzunu siyasi manipulyasiya alətinə çevirən Ermənistanın pozucu fəaliyyəti qarşı tərəfin sülh və sabitlikdə, habelə bu istiqamətdə dialoqda maraqlı olmadıqlarını bir daha nümayiş etdirib.

Bununla yanaşı, qeyd edilən addımlar humanitar əsasda iddiaların əsassız olduğunu bir daha sübut edərək, bölgədə vəziyyətin gərginləşdirilməsinə xidmət edir", - deyə A.Hacızadə İrəvan və separatçıların pozucu fəaliyyətini ifşa edən Rusiyanın "Kommersant" qəzetində dərc edilmiş məqalədə əksini tapmış fikirlərə münasibətində bildirib.

ERMƏNİSTANIN BAŞQA ÇIXIŞ YOLU YOXDUR

Ceymstaun Fondunun İdarə Heyətinin üzvü, ABŞ-nin Azərbaycandakı keçmiş səfiri Metyu Brayza "Report"a açıqlamasında bildirib ki, Ermənistanın "Laçın" sərhəd-buraxılış məntəqəsindəki təxribatları İkinci Qarabağ müharibəsindəki məğlubiyyət faktının bu ölkənin siyasi dairələrində qəbul edilməməsi ilə bağlıdır. Diplomat Laçın yolu ətrafındakı vəziyyətin onu qətiyyən narahat etmədiyini bildirərək bunun səbəbini izah edib: "Aydındır ki, Ermənistan Qarabağın statusu məsələsini yenidən gündəmə gətirmək məqsədi güdür. Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın, o cümlədən Qarabağ da daxil olmaqla ərazi bütövlüyünü tanısa da, Ermənistan siyasi dairələrində və hakimiyyətində hələ də bu faktı və İkinci Qarabağ müharibəsindəki məğlubiyyəti tanımaq istəməyənlər var. Ona görə də Laçın yolu vasitəsilə "humanitar yardım" daşımaq kimi təxribat xarakterli addımlar atırlar. Ancaq bildirməliyəm ki, Ermənistan tərəfinin reallıqla barışmaqdan başqa çıxış yolu yoxdur".

AZƏRBAYCANIN MÖVQEYİ KİFAYƏT QƏDƏR BAŞADÜŞÜLƏNDİR

M.Brayza qeyd edib ki, Azərbaycanın mövqeyi kifayət qədər başadüşüləndir: "Azərbaycan öz siyasi və qanuni hüquqlarından istifadə edir və Ağdam yolu ilə humanitar yardımın həyata keçirilməsi kimi bir təklif irəli sürür".

M.Brayza qeyd edib ki, Ermənistan Azərbaycanla ciddi şəkildə savaşmaq bacarığına sahib orduya malik deyil: "Rusiya, Türkiyə, Avropa İttifaqı, ABŞ, bir sözlə, regiondakı aktorların heç biri Ermənistanla Azərbaycan arasında yeni bir müharibənin olmasını istəməz. Hesab edirəm ki, Paşinyan vəzifəsindən uzaqlaşdırılmaq üçün fiziki hücuma məruz qalmasa, biz gələcək həftələrdə və ya aylarda sülh sazişinin imzalandığını görəcəyik.

Metyu Brayza

Düşünürəm ki, ölkələr arasında sülh məsələsində vasitəçilik prosesin inkişafına kömək edəcək. Hazırda əsas olan sülh müqaviləsi məsələsində irəliləyişdir, onun imzalanma ehtimalı nə qədər yüksək olarsa, prosesi ləngitmək və bunun qarşısını almaq istəyənlər də bir o qədər çox olar".

SƏRHƏDYANI RAYONLARA XÜSUSİ DİQQƏT

Azərbaycan Prezidentinin bölgələrə budəfəki səfərini fərqləndirən mühüm məqamlar var. Dövlət başçısının "Qazax" Əlahiddə Sərhəd Diviziyasının qarnizon kompleksində yaradılan şəraitlə tanışlığı isə xüsusi əhəmiyyət kəsb edir.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Bir neçə gün əvvəl Prezident İlham Əliyev Qazax, Şəmkir, Samux və Bərdə rayonlarına səfər etdi. Dövlət başçısı Qazaxda yenidən qurulan Qarapapaq-Çaylı avtomobil yolunun, Bakı-Qazax-Gürcüstan magistral avtomobil yolunun ümumi uzunluğu 102 kilometr olan Gəncə-Qazaxbəyli hissəsinin açılışında iştirak etdi. Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qazax" Əlahiddə Sərhəd Diviziyasının qarnizon kompleksində, Qazax Müəllimlər Seminariyası ADA Universiteti Qazax Mərkəzində yaradılan şəraitlə tanış oldu. Şəmkir şəhəri Məhəmməd Füzuli adına təbiət və humanitar fənlər təmayüllü tam orta məktəb-liseyin, Samux Rayon Mərkəzi Xəstəxanasının, Sərkar kənd uşaq musiqi məktəbinin yeni binasının açılışında iştirak etdi. Dövlət başçısının iştirakı ilə Bərdədə Qarabağ Regional DOST Mərkəzi və Qarabağ Regional Peşə Hazırlığı Mərkəzi istifadəyə verildi.

DÜŞMƏNİ QORXUYA SALAN HƏRBİ TƏCHİZAT

Azərbaycan Prezidentinin bölgələrə budəfəki səfərini fərqləndirən bir sıra mühüm məqamlar var idi. Öncə onu qeyd edək ki, Qazax, Şəmkir və Samux Ermənistanla şərti dövlət sərhədlərimizə çox yaxındır. Bərdə isə işğaldan azad edilən Yuxarı Qarabağ İqtisadi rayonuna istiqamətlənmiş magistral marşrutların mərkəzi xabı olması ilə fərqlənir.

Dövlət başçısının "Qazax" Əlahiddə Sərhəd Diviziyasının qarnizon kompleksində yaradılan şəraitlə tanışlığı isə xüsusi əhəmiyyət kəsb edir. Belə ki, bu səfər və oradakı şəraitlə tanışlıq düşmənə və onun havadarlarına Silahlı Qüvvələrimizin, o cümlədən DSX-nin təchizatı, müasir silah-sursat və avadanlıqlarla təminatı, döyüş hazırlığı səviyyəsinin dövlətimiz üçün daim prioritet olmasını nümayiş etdirdi. Həmçinin, Ermənistanın sərhədlərin delimitasiyası prosesini yubatması fonunda sülh sazişi imzalanacağı təqdirdə, məhz Qazax istiqamətində yerləşən anklavlarımızın geri qaytarılması daha da aktuallaşır. Lakin İrəvanda anklavların geri qaytarılmasına qarşı çıxanlar Azərbaycanla sülh sazişinin imzalanmasını sabotaj etmək üçün Qazax istiqamətində mövcud vəziyyətin daha həssas olmasından istifadə edərək hərbi təxribatlara əl ata bilərlər. Bu ehtimal hər zaman var və hazırlıqlı olmaq lazımdır. Laçın yolundakı sərhəd buraxılış məntəqəsi ətrafında düşmənin revanşist qüvvələrinin hərbi təxribatlara çağırışları bu ehtimalı daha da gücləndirir. Sərhədlərimizdə təxribatların qarşısının alınmasında isə ilk məsuliyyət məhz DSX birləşmələrinin üzərinə düşür. Bu səbəbdən, Azərbaycan Ermənistanla şərti sərhəddə yerləşən sərhəd qoşunlarının maddi-texniki təminatına, hazırlığına xüsusi diqqət ayırır. "Qazax" Əlahiddə Sərhəd Diviziyasının qarnizon kompleksinə səfər isə qarşı tərəfə Azərbaycan Ordusunun 2020-ci il Vətən müharibəsi ilə müqayisədə daha güclü və hazırlıqlı olduğunu göstərdi.

MƏQSƏD HƏYAT ŞƏRAİTİNİ YAXŞILAŞDIRMAQDIR

Hər bir dövlətin milli təhlükəsizlik konsepsiyasının ən mühüm komponentlərindən biri sərhəd rayonlarının sosial-iqtisadi, mədəni inkişafına xüsusi diqqət yetirilməsidir. Çünki ölkəmizə gələn hər bir şəxs sərhəddən keçərkən qarşılaşdığı ilk mənzərə onda formalaşan təəssüratla bağlı çox mühüm rol oynayır. Digər tərəfdən, Ermənistanla sərhəd ərazilərimiz həm də uzun illər işğal faktı və müharibə riskinə görə ciddi təhdidlərlə üzləşib, bəzən sərhədyanı kəndlərimiz digər bölgələrlə müqayisədə inkişaf baxımından bir qədər geri qalırdılar. Lakin Prezidentin məlum səfəri göstərdi ki, artıq Azərbaycanın hər bir guşəsinin, hər bir rayonunun sosial-iqtisadi inkişafı dövlətimiz üçün bərabər səviyyədə prioritetdir. Yeni infrastruktur obyektlərinin istifadəyə verilməsi əhalinin rifah halının yaxşılaşdırılmasına xidmət edir. Bu həm də onlarla, yüzlərlə vətəndaşımızın iş yeri ilə təmin olunması deməkdir. Məqsəd insanların həyat şəraitini, sosial rifahını daha da yaxşılaşdırmaqdır.

TƏHSİLƏ XÜSUSİ DİQQƏT

İlham Əliyevin dörd rayona səfəri çərçivəsində diqqətimizi cəlb edən digər mühüm bir məqam isə açılışı edilən obyektlərin daha çox təhsil yönümlü olmasıdır. Bu, ölkəmizdə elm və təhsilə olan diqqət və qayğının bir təzahürüdür. Uşaq və gənclərimizin təhsili, intellektual səviyyəsinin yüksəldilməsi diqqətdə saxlanılır. Azərbaycanda neft kapitalının insan kapitalına çevrilməsisinin nümunəsidir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Paşinyan Rusiya və Qərbdən nə istəyir?

Ermənistanın baş nazirinin açıqlamaları ilə gah nala, gah da mıxa vurması adət halını alıb. Son vaxtlar "Laçın" sərhəd-buraxılış məntəqəsi ətrafında baş verənlərdə də bu hal müşahidə olunur. Bu dəfə Paşinyanın hədəfi həm Qərb, həm də Rusiyadır.

F.ABASOĞLU

Ermənistanın baş naziri Nikol Paşinyan bir-birini təkzib edən bəyanatları ilə gündəmdə qalmaqda davam edir. Bir neçə gün əvvəl verdiyi açıqlamanı unudaraq onun əksinə bəyanat səsləndirmək onun üçün artıq adət halına çevrilib. Bu dəfə isə erməni baş nazirin hədəfi həm Rusiya, həm də Qərb olub.

PAŞİNYAN ANLAYIR Kİ, BAŞQA YOLU QALMAYIB

Bir müddətdir 19 yük maşınını Həkəri körpüsü önündə gözlədən Paşinyan tənqid hədəfi kimi Rusiya sülhməramlılarını seçib. Paşinyandan əlavə, erməni rəsmiləri də Rusiya sülhməramlılarının yarıtmaz olduğu, onlara kömək etmədiyi barədə fikirlər səsləndiriblər. Bu açıqlamaların əsas məqsədi isə məlumdur. Sifariş Fransadan gəlir. Afrikada dayaqlarını itirən Fransaya yeni ərazilər lazımdır və dünya imperializminə xidmət edən, Fransanın "bacılığı" olan Ermənistan nə etməlidir? Rusiya sülhməramlılarının ərazidən çıxarılaraq onların fransız sülhməramlıları ilə əvəz olunmasına cəhd etməlidir.

Azərbaycanla razılaşmadan yük maşınlarını sərhədə göndərən Paşinyan əvvəlcədən rəsmi Bakının qəti etirazı ilə rastlaşacağını bilirdi. Amma məqsəd nə humanitar yükdür, nə də Laçın yolu. Paşinyanın əsl məqsədi həm Rusiyanı, həm də Qərbi tənqid edərək onlardan nəsə "qoparmaqdır". Ermənistanın ictimai-siyasi həyatında baş verən təlatümlər, etirazlar, müxalifətin kəskin reaksiyası, Azərbaycanın qətiyyəti, dünya dövlətlərinin mövqeyini nəzərə alan Paşinyan artıq anlayır ki, sülh müqaviləsini imzalamaq və Zəngəzur dəhlizinin açılmasına qol qoymaqdan başqa yolu qalmayıb. Bu səbəbdən son hərəkətləri ilə Qərb və Rusiyaya mesaj göndərir, onlardan nəsə ummağa çalışır. Necə deyərlər, "bir tük də qənimətdir" misalı Paşinyanın kredosuna çevrilib.

BƏY-GƏLİN FOTOSESSİYASINI KÖLGƏDƏ QOYAN GÖRÜNTÜLƏR

Neçə gündür ki, sərhəddə guya Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan və "acından ölən" ermənilərə "humanitar yardım" aparmaq məqsədilə gələn yük maşınları ömürlərində görmədikləri qədər fotosessiyaya məruz qalıblar. Əvvəl sayı 19 olan yük maşınları son günlər "balalayaraq" 21 olub. Ermənistan hökumətinin təmsilçiləri bol-bol fotosessiya etdirir, dünyaya 21-ci əsrin erməni nağılının son versiyasını danışmaqda davam edir. Amma bu fotosessiyalar və eyni məzmunlu bəyanatlar da Paşinyanın planına xidmət edə bilmədi. İstər BQXK, istərsə də digər qurumlar məsələ ilə bağlı səlahiyyətlərinin olmadığını açıqladılar. Məsələ Avropa Parlamentinin erməni diasporundan maliyyələşən bəzi nümayəndələrinin təsəlliverici açıqlamalarından o yana keçmədi.

Yük maşınlarının sərhəddə fotosessiya məqsədi ilə aparılması isə gün kimi aydındır. Əgər erməni baş nazirin məqsədi həqiqətən humanitar yük göndərmək olsaydı, beynəlxalq hüquq və normalara riayət edərək əvvəlcə Azərbaycana müraciət edər, məlumatlandırar, icazə almağın mümkünlüyünü dəqiqləşdirərdi.

RUSİYA ZƏNGƏZUR DƏHLİZİNDƏ MARAQLIDIR

Paşinyanın son açıqlamalarından sonra Rusiyadan cavab gəldi. Rusiya XİN-in rəsmisi Denis Qonçar kortəbii hazırlanan sülh müqaviləsinin yeni münaqişəyə səbəb olacağı barədə açıqlama yaydı. Bu, Rusiyanın Cənubi Qafqazdakı mövqeyini əldən verməyə niyyətinin olmaması deməkdir. Rus diplomat eyhamla Paşinyana başa salır ki, sülhməramlıları əvəz etsəniz, regionda yeni toqquşmalar labüddür. Amma eyni gündə Rusiyadan başqa bir xəbər də gəldi. RF Qafanda konsulluq açmaq niyyətindədir. Bəziləri bununla Rusiyanın Zəngəzur dəhlizinin əleyhinə olduğunu nümayiş etdirdiyi qənaətinə gəlsələr də, əslində reallıq fərqlidir. Rusiya dəfələrlə bəyan edib ki, Zəngəzur dəhlizində maraqlıdır və bu yol onun üçün əlavə bazarlara çıxış, əlavə tranzit vasitəsidir. Qafanda konsulluq açmaq isə birbaşa Qərbə mesajdır: "Zəngəzur dəhlizində mən də maraqlıyam". İrandan fərqli olaraq Rusiya Zəngəzur dəhlizinin açılmasını istəyir. Nəzərə almaq lazımdır ki, Ermənistanın bütün dəmiryolu xətləri hüquqi baxımdan Rusiyaya məxsusdur. Deməli, istənilən halda Rusiya üçün dəhlizin və digər yolların açılması məqbuldur.

ABŞ RƏSMİSİNİN RUSİYAYA VƏ PAŞİNYANA MESAJI

Paşinyan bu günlərdə Qərbi də tənqid etməkdən çəkinməyib. Brüssel formatının effektiv olmadığı barədə açıqlama verən Paşinyana və sülh müqaviləsi ilə bağlı tələsik bəyanat səsləndirən Denis Qonçara ABŞ Dövlət Departamentinin rəsmisi Metyu Müllerdən cavab gəlib: "Söhbət Ermənistan və Azərbaycandan gedəndə Rusiyadan danışmaq istəmirəm. Mən bu münaqişənin birbaşa tərəfi olan iki ölkə haqqında danışmaq istəyirəm. İnanırıq ki, məsələdə tərəf olmayanların şərhlərindən asılı olmayaraq, razılaşma yaxın olaraq qalır və biz buna nail olmaq üçün onlarla işləməyə davam edəcəyik".

Metyu Miller

M.Müller demək istəyir ki, Ermənistan-Azərbaycan arasında sülh danışıqlarında sadəcə iki tərəf var. Rusiyanın şərhləri isə nəzərə alınmamalıdır, sülh müqaviləsi iki tərəf arasında imzalanmalı və müsbət irəliləyişlər davam etməlidir. ABŞ rəsmisi açıqlaması ilə nala-mıxa vuran Paşinyana mesaj ötürür ki, istənilən halda, sülh müqaviləsi imzalanacaq və Paşinyanın son çırpınışları nəzərə alınmayacaq. Eyni anda Rusiyaya da bulanıq suda balıq tutmamaq məsləhət görülür. Diplomatın qeyd etdiyi kimi, məsələ iki dövlət - Azərbaycan və Ermənistan arasında həll olunacaq...

Denis Qonçar

BARIT QOXUSUNDAN AZAD FÜZULİ

Artıq işğaldan azad olunmuş torpaq-larımıza dinc həyat, dirçəliş geri qayıdır. Füzuli də çiçəklənən bir guşəyə çevrilir. Buradan barıt qoxusu çəkilməkdə, çiçəklərin xoş rayihəsi qayıtmaq-dadır. Tezliklə, indi boş görünən küçələrdən uşaq səsləri eşidiləcək. Yeni evlərə gündəlik həyat qayğıları dolacaq. Vətən öz yaralarını saracaq...

İLHAMƏ ƏBÜLFƏT

Bu, Vətən müharibəsi nəticəsində erməni işğalından azad edilən, Bakıdan 364 km məsafədə yerləşən Füzuliyə ikinci səfərimiz idi. 2021-ci ilin aprelinə təsadüf edən ilk səfərimiz zamanı Füzulidən barıt qoxusu sanki çəkilməmişdi hələ. Yolboyu şahidi olduğumuz erməni vandallığı bizi dərindən sarsıtmışdı. Düşünürdük ki, görəsən, bu torpaqlara yenidən həyat qayıdacaqmı? Barıt qoxusu çəkiləcəkmi? Bir zamanlar olduğu kimi, bu yollardan xoşbəxt toy karvanları keçəcəkmi? Beləliklə, yolumuz yenidən Füzuliyədir...

BURAYA ARTIQ YENİ BİR NƏFƏS GƏLİR

İşğaldan azad edildikdən sonra Prezident İlham Əliyev də çıxışlarının birində bildirmişdi ki, Füzulidə bir dənə də olsun salamat bina yox idi: "Hər şey yerlə-yeksan edilmişdir. Bir dənə də bina tapılmadı ki, orada bayrağımızı qaldıraq".

İndi isə, İ.Əliyevin "Böyük Qayıdışa dair I Dövlət Proqramı" üzrə verdiyi tapşırığa əsasən, Qarabağda bərpa, tikinti işləri başlayıb. Budəfəki səfərimizdə gördüklərimiz də bizləri heyran etdi. Füzuliyə artıq yeni bir nəfəs gəlir.

Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru Övsət Həmidov ilə birgə Füzulidə aparılan bərpa-quruculuq işləri ilə tanış oluruq. Onun sözlərinə görə, digər rayonlarımız kimi Füzulidə də işğaldan sonra əvvəlcə mina və partlamamış hərbi sursatlardan təmizlənmə işlərinə başlanılıb: "Ən zəruri infrastrukturun qurulması istiqamətində işlərə start verildi. Qısa zamanda Füzulidən keçən Zəfər yolu və Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verildi. Şəhər ərazisində 110/35/10 kilovoltluq yarımstansiyanın qurulması və fəaliyyətə başlaması da ilk mərhələdə görülən işlərdəndir. Qısa zamanda Füzuli-Hadrut yolu da yenidən tikildi. Şəhərin baş planına uyğun olaraq mərkəzdə, Zəfər yolunun kənarında yaşayış məhəllələri salınır. 38 çoxmərtəbəli bina inşa edilir. 846 mənzildən ibarət binalar 4, 5, 6 və 7 mərtəbəli olacaq. Mənzillərin 318-i ikiotaqlı, 430-u üçotaqlı, 98-i isə dördotaqlıdır. Bütün binalar yeraltı dayanacaqla və liftlə təmin olunur".

İLKİN MƏRHƏLƏDƏ 18,5 KİLOMETR YOLUN TİKİNTİSİ PLANLAŞDIRILIR

Şəhərdə daxili yol-küçə və kommunikasiya şəbəkəsinin qurulması istiqamətində də quruculuq işləri sürətlə həyata keçirilir. Baş plana görə şəhərdaxili yolların ümumi uzunluğunun 87 kilometrdən çox olması nəzərdə tutulub.

Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Leyla Sarabi deyir ki, ilkin mərhələdə 18,5 kilometr yolun tikintisi planlaşdırılır: "Hazırkı mərhələdə 2,2 km hissədə şəhərdaxili yol və kommunikasiya xətləri çəkilir. Birinci dərəcəli ümumşəhər əhəmiyyətli prospektlərin eni 44, ikinci dərəcəli ümumşəhər əhəmiyyətli prospektlərin eni 34, ümumşəhər əhəmiyyətli küçə və yolların eni 24, yerli əhəmiyyətli küçə və yolların eni isə 20 metrdir. Prospektlər dördzolaqlı, küçə və yollar isə ikizolaqlı olmaqla tikilir".

ÖZBƏKLƏRDƏN FÜZULİYƏ MƏKTƏB HƏDİYYƏSİ

Qarabağ onun dirçəldilməsində töhfə verəcək hər kəsə qapısını açıb desək, yanılmarıq. Belə ki, hazırda Özbəkistan tərəfindən Füzuli şəhərində məktəb inşa edilir. Təhsil ocağında 960 nəfər şagird təhsil ala biləcək. Artıq təhsil ocağında son tamamlama işləri görülür. Yaxın günlərdə məktəb binasının açılışı gözlənilir. Tezliklə Füzulidə 30 ildən sonra ilk dərs zəngi çalınacaq...

L.Sarabi vurğulayıb ki, üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir: "Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, akt zalı, idman zalı, yeməkxana, kitabxana yaradılıb. Məktəbin ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları inşa edilib".

SENTYABRA KİMİ FÜZULİYƏ KÖÇ PLANLAŞDIRILIR

Qazaxıstan tərəfindən isə Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılığı İnkişafı Mərkəzi inşa edilir. Uşaq Yaradıcılığının İnkişafı Mərkəzinin təməli bu ilin mart ayında qoyulub. Layihəyə əsasən, incəsənət məktəbi Füzuli şəhərində ümumi sahəsi 1,5 hektar olan ərazidə yerləşir. Mərkəzin tikinti sahəsi 2708 kvadratmetrdir. Bina ikimərtəbəli olacaq. Hazırda binada dəmir-beton işləri başa çatdırılıb, dam örtüyü vurulub. Daxilində hörgü və suvaq işləri görülür.

Bu mərkəzdə hər biri 300 nəfərdən olmaqla növbəli şəkildə 600 nəfər şagirdin təhsil alması üçün lazımi şərait yaradılacaq.

Sentyabr ayına kimi Füzuliyə köç planlaşdırılır. İlkin mərhələdə 144 ailə köçürüləcək.

Binaların inşasında çalışan işçilər də burada həvəslə işləyirlər. Deyirlər ki, Qarabağda işləmək qürurdur: "Hava şəraiti isti olsa da, biz çalışırıq ki, işləri vaxtında bitirək. Öz evindən didərgin düşənlər doğma torpaqlarına qayıtsınlar".

Beləliklə, işğaldan azad olunmuş torpaq-larımıza dinc həyat, dirçəliş geri qayıdır. Füzuli də çiçəklənən bir guşəyə çevrilir. Buradan barıt qoxusu çəkilməkdə, çiçəklərin xoş rayihəsi qayıtmaqdadır. Tezliklə, indi boş görünən küçələrdən uşaq səsləri eşidiləcək. Yeni evlərə gündəlik həyat qayğıları dolacaq. Vətən öz yaralarını saracaq...

Övsət Həmidov

Leyla Sarabi

Fotolar: Sabir Məmmədov/ Global Media Group

Masallıdan "Harvard"a uzanan yol



Ailədə elə şərait yaradılmalıdır ki, uşaq özü oxumağa həvəs göstərsin. Əgər uşaq valideynlərin münasibətinə qiymət verirsə, yaxınlarının məhəbbətini və qayğısını hiss edirsə, başa düşəcək ki, dərsə ciddi yanaşma onlar üçün vacibdir. Elə budəfəki qəhrəmanımızın uğura aparan yolda ən böyük dəstəkçisi də məhz ailəsi olub.

KÖNÜL CƏFƏRLİ

Ailədə elə şərait yaradılmalıdır ki, uşaq özü oxumağa həvəs göstərsin. Əgər uşaq valideynlərin münasibətinə qiymət verirsə, yaxınlarının məhəbbətini və qayğısını hiss edirsə, başa düşəcək ki, dərsə ciddi yanaşma onlar üçün vacibdir. Elə budəfəki qəhrəmanımızın uğura aparan yolda ən böyük dəstəkçisi də məhz ailəsi olub.

Müsahibimiz Nərgiz Məmmədova 21 sentyabr 1998-ci ildə dünyaya gəlib. Orta təhsilini Masallı rayonu, Rasim Əliyev adına Mollahəsənli kənd tam orta məktəbində alıb. İqtisadiyyat fakültəsi üzrə bakalavr təhsilini 2015-2020-ci illərdə ADA Universitetində, ilk magistratura təhsilini isə 2020-2022-ci illərdə Rusiyanın Milli Tədqiqat Universiteti Ali İqtisadiyyat Məktəbində (National Research University Higher School of Economics) "Economics-Research Prog-ram" üzrə alıb.

"QIZLARIN TƏHSİL ALMALARINA EHTİYAC VAR"

Nərgiz deyir ki, bu gün qızlarının təhsil almasına mane olan ailələrin mövcudluğu onu da məyus edir: "Müasir dövrdə qızların təhsil almalarına qadağa qoymaq cəmiyyətin inkişafına ziyanlı yanaşmadır. Təhsil insanların potensialını açır, onlara yeni imkanlar verir və cəmiyyətin mədəniyyət, texnologiya və iqtisadiyyat sahəsində irəliləməsinə şərait yaradır. Bugünkü dünyada qızların təhsil almasına ehtiyac var. Onlara müstəqil, müasir cəmiyyətin qurulması prosesində eyni imkanlar təqdim edilməlidir".

"AİLƏM MƏNİ HƏR MÖVZUDA DƏSTƏKLƏYİR"

Ailəsi onu hər mövzuda dəstəklədiyi üçün müsahibimiz özünü həmyaşıdlarından şanslı hesab edir: "Şanslı qızam ona görə ki, valideynlərimin və yaxınlarımın sevgisi ilə böyümüşəm, sevgiyə ac deyiləm. Okeanın o tayında belə olsam məndən sadəcə bir zəng qədər uzaq olan dostlarım var. Vaxtilə ADA Universitetində təhsil alma imkanım olduğu üçün şanslıyam. ADA bugünkü Nərgizi bir şəxsiyyət olaraq formalaşdırdı və bunda mənim dəyərli professorum olan Elkin Nurməmmədovun rolu böyükdür. Ailəm də məni hər mövzuda dəstəkləyir. Çünki, onları utandıracaq bir addım atmayacağımı bilirlər. Onların güvəni mənə hər zaman güc verir".

"HARVARD" XƏYALIM İDİ"

Nərgiz deyir ki, birinci magistr təhsilini bitirdikdən sonra "Harvard"da magistr pilləsi üzrə növbəti təhsil ən böyük xəyalı olub: "2022-ci ildə ilk magistr təhsilimi başa vurduqdan sonra planım ABŞ-də iqtisadiyyat üzrə doktorantura təhsili almaq idi və bu məqsədlə bir sıra universitetlərə müraciət edib müsbət geri dönüşlər almışdım. Lakin sonradan özümü dövlət idarəetməsi sahəsində sınamaq qərarına gəldim. "Harvard"da təhsil almaq 2011-ci ildən bəri xəyalım olub.

"İXTİSASIM İQTİSADİYYAT OLSA DA..."

Mən "2022-2026" Dövlət Proqramı çərçivəsində Harvard Kennedy Məktəbinin 2 illik magistr proqramı olan Beynəlxalq İnkişafda İctimai İdarəçilik təhsil proqramında təhsilimi davam etdirirəm. Harvard Kennedy School MPA/ID proqramı, nəzəriyyə və təcrübəni birləşdirən, rigoroz və tərəfdaş tədris proqramı kimi tanınır".

Müsahibim deyir ki, həmkarlarından fərqli olaraq təhsilini bitirdikdən sonra fəaliyyət sahəsini dəyişmək istədiyi istiqamətlər var:

"Əsas ixtisas sahəm iqtisadiyyat olsa da, maliyyə və data analitikasına marağım hər zaman güclü olub. "Harvard"da təhsil müddəti ərzində Finance və Data Science yönümlü dərslər alıb onların idarəetmə və iqtisadi inkişaf sahələrində rolunu araşdırmağı düşünürəm".

"TƏHSİLİM ÜÇÜN ÇOX ŞEYİ QURBAN VERDİM"

Nərgiz yüksək keyfiyyətli təhsil almaq və arzularına çatmaq üçün şirin yuxusundan və bir çox şeydən keçməli olub: "Yuxu vaxtımın bir hissəsindən vaz keçməli oldum. Ən sevimli hobbilərimə zaman ayıra bilmirdim. Dərslərimə daha çox vaxt ayıra bilmək məqsədilə sosial fəaliyyətlərimi məhdudlaşdırdım. Amma bu qurbanlar mənim təhsilimin keyfiyyətini artırdı və qarşımda daha böyük perspektivlər açdı. Təhsilim boyunca qurban verdiyim şeylər, nəhayətində böyük ödüllər və perspektivlər gətirdi. Çünki özümü öyrənən və inkişaf edən bir şəxs kimi hiss edirəm. Zaman-zaman maddi çətinliklərlə üzləşsək də, valideynlərim üçün öncəlik hər zaman mənim və bacımın təlim-tərbiyəsi olub".

"QIZLARINIZIN HƏYATİ MƏQSƏDLƏRİNƏ HÖRMƏT EDİN"

Nərgiz deyir ki, qız uşağının təhsilini və inkişafını ən yüksək prioritet kimi qəbul etmək lazımdır: "Qızlarınıza mümkün qədər geniş imkanlar təmin edin ki, öz potensiallarını reallaşdırmaq imkanı qazansınlar. Onların müstəqil düşünmə və qərarvermə bacarığına nail olmalarına kömək edin. Onlara mənəvi dəyərlər və etik prinsipləri öyrədin. Özlərinə və başqalarına hörmətli olmalarını, yardım etmələrini təşviq edin. Qızlarınıza hər zaman dəstək və anlayış göstərin. Onların seçimlərinə, marağına və həyati məqsədlərinə hörmət edin. Bunlar qızlarınızın müstəqil və özünəgüvənli bir şəkildə inkişaf etməsinə və cəmiyyətə pozitiv təsir etməsinə kömək edəcək.

Gələcək üçün daha yaxşı yatırım, əlbəttə ki, zəkaya, dünyagörüşünə və intellektual inkişafa yatırım etməkdir. Vizuallıq önəmlidir, lakin zəka, müstəqil düşünmə, problem həll etmə qabiliyyəti, tədqiqat və analitik bacarıqlar, innovativ yanaşma – həmin mühitin fərqli sahələrində nailiyyət qazanmağa vadar edən faktorlardır".

"TƏHSİLİMİ BİTİRİB VƏTƏNƏ QAYIDACAĞAM"

Nərgiz Məmmədova təhsilini bitirdikdən sonra Azərbaycana qayıtmağı düşündüyünü deyir: "2022-2026" Dövlət Proqramının şərtlərinə əsasən, məzunlar təhsillərini başa vurduqdan sonra Azərbaycana qayıdıb beş il işləməlidirlər. Mən də təhsilimi başa vurduqdan sonra Vətənə qayıtmağı düşünürəm. Müasir Azərbaycan gənci olaraq məqsədim cəmiyyətə faydalı olmaqdır".

Qazaxıstan Rusiyadan uzaqlaşmaq istəyir

AZƏR NURİYEV
azernuriyev@kaspi.az

Qazaxıstan Rusiyanın məruz qaldığı sanksiyalardan ziyan çəkməməyə çalışır, Qərblə yaxınlaşma siyasətinə üstünlük verir. Rusiya isə qonşusunun bu müstəqil addımlarını, Ukraynanın ərazi bütövlüyünü tanımasını, hərbi əməliyyatları dəstəkləməməsini həzm edə bilmir. Bu səbəbdən, Qazaxıstanda gərginlik yaratmağa çalışır, rusiyapərəst qüvvələri fəallaşdırır.

Qazaxıstan-Rusiya münasibətlərində hiss olunacaq gərginlik yaşanır. Hər iki tərəf bunu təkzib etməyə çalışsa da, proseslər açıq müstəviyə keçir. İllər uzunu iki ölkə arasında münasibətlər strateji xarakter alsa da, Ukraynaya Rusiya təcavüzündən sonra vəziyyət dəyişib. Qazaxıstan Rusiyanın məruz qaldığı sanksiyalardan ziyan çəkməməyə çalışır, Qərblə yaxınlaşma siyasətinə üstünlük verir. Bu da cavabsız qalmır. Rusiya Qazaxıstanın Ukraynanın ərazi bütövlüyünü tanımasını, hərbi əməliyyatları dəstəkləməməsini həzm edə bilmir. Bu səbəbdən, Qazaxıstanda gərginlik yaratmağa çalışır, rusiyapərəst qüvvələri fəallaşdırır.

"HAKİMİYYƏTİ BƏYƏNMƏYƏN VARLILAR"

Neçə gündür ki, qazax cəmiyyəti Qazaxıstan Milli Təhlükəsizlik Komitəsinin (DTK) keçmiş sədri Amangeldi Şabdarbayevi müzakirə edir. Bu şəxs qalmaqallı açıqlamalarla, sensasion ittihamlarla gündəmə gəlməyə çalışır. "Abay Live" kanalında müzakirəyə səbəb olan müsahibəsində Şabdarbayev əsasən xüsusi xidmət orqanının rəhbəri olduğu dövrlərdə və sonrakı illərdə baş verən hadisələrə toxunub. 2022-ci ilin yanvarında ölkədə yaşanan qanlı yanvar hadisələrinə toxunaraq bu proseslərin arxasında "hakimiyyəti bəyənməyən varlıların" olduğunu etiraf edib. Yayılan informasiyalara görə, keçmiş DTK rəhbəri Rusiya xüsusi xidmət orqanlarına yaxınlığı ilə seçilir. Onun hadisələrdə ölkə rəsmilərini ittiham etməsi Rusiyanın planı kimi qələmə verilir. Bir növ ölkədə informasiya gərginliyi yaratmaq istədiyi vurğulanır.

Qazaxıstanla Rusiya arasında gərginlik digər sahələri də əhatə etməyə başlayıb. Bura Qərblə yaxınlıq, Xəzərdə hərbi donanmanı gücləndirmək və s. daxildir.

KREML ASTANANI MÜHARİBƏYƏ CƏLB ETMƏK İSTƏYİR

Kremlin Qazaxıstanda gərginlik yaratmaq cəhdinə daha bir misal kimi Rusiya xüsusi xidmət orqanları tərəfindən hazırlanan və dövriyyəyə buraxılan elanları göstərmək olar. Rusiya ordusuna qoşulanlara dərhal beş min dollar ödəniş vəd edilən elanlar Qazaxıstan internet istifadəçilərinin ekranlarını bürüyüb. Keçmiş sovet respublikası olan Qazaxıstan əhalisinin üç milyonu etnik ruslardır. Qazaxıstanda əhəmiyyətli sayda etnik rusun olmasına baxmayaraq, sözügedən elanların məhz etnik qazaxları hədəflədiyi görünür. Belə ki, reklamlarda Rusiya və Qazaxıstan bayraqları təsvir edilib, habelə "çiyin-çiyinə" şüarı yazılıb. Elanlar Rusiya ordusu ilə müqavilə bağlayanlara birdəfəlik ödənişlə 495 min rubl (5300 dollar) avans, habelə 190 min rubl (2000 dollar) aylıq maaş vəd edir. Elanlarda göstərilir ki, yeni səfərbər olunanlar Rusiya silahlı qüvvələrinə Uzaq Şərq regionundakı Saxalin adasında qoşulacaqlar. Qazaxıstan qanunları vətəndaşlara başqa ölkələrdə ödənişli hərbi xidməti qadağan edir.

Qazaxıstanın İnformasiya və Sosial İnkişaf Nazirliyi də bu məsələyə dair sorğulara cavab verməyib.

QAZAXISTAN XƏZƏRDƏ MÖHKƏMLƏNİR

İkitərəfli münasibətlərdə başqa bir gərginlik Xəzərdə yaşana bilər. Qərb nəşrləri bildirir ki, Türkiyə Qazaxıstana Xəzər dənizində donanmasını gücləndirməyə kömək etmək niyyətindədir.

Amerikalı analitik Pol Qobl Amerikanın Ceymstaun Fondunun saytında sual edir: Bəs Ankara və Astananın planı bu su anbarında ən güclü donanmaya sahib olan Rusiyanın hökmranlığına necə təsir edəcək?

Rusiyanın Xəzər donanması uzun illərdir ki, akvatoriyada üstünlük təşkil edir. İndiyədək digər sahilyanı ölkələr öz donanmalarından müdafiə üçün deyil, axtarış-xilasetmə əməliyyatları və ya dənizdə qazma platformalarının və boru kəmərlərinin mühafizəsi üçün istifadə ediblər. Lakin Qazaxıstan bu vəziyyəti dəyişə bilər. Qoblun sözlərinə görə, Sovet İttifaqının dağılmasından sonra Qazaxıstan Xəzərdə gəmilər qəbul etməyib, əksinə, dənizdəki imkanlarını sürətlə artıraraq inventarını başqa dövlətlərdən alınan gəmilərlə doldurub. İndi ölkənin siyasəti yeni səviyyəyə çatır və Astana tək sahil xəttinin deyil, həm də dəniz dəhlizlərinin müdafiəsinə diqqət yetirəcək.

Pol Qobl

TÜRKİYƏ İLƏ RAZILAŞMA QAZAXISTANA STRATEJİ ÜSTÜNLÜK VERƏ BİLƏR

Qazaxıstanın dövlətə məxsus "Zenit" zavodu Türkiyənin "Asfar" və "YDA Group" şirkətləri ilə Uralskda hərbi gəmilərin inşası üçün müqavilə imzalayıb. Qobl bildirib ki, bu tənzimləmə bir neçə səbəbə görə vacibdir. Birincisi, bu, Moskvanın Qazaxıstanın gəmiqayırma sənayesində dominant oyunçu olaraq qalmaq planına "zərbədir". 2010-cu ildə Rusiyanın Astana üçün gəmilər tikəcəyinə dair müqavilə imzalanandan bəri Moskva bu ölkədə sənayedə əsas oyunçu olduğunu iddia edir. Lakin o vaxtdan bəri cəmi iki minaaxtaran gəmi tikildiyindən Qazaxıstan başqa tərəfdaşlar axtarmağa başladı. İkincisi, Türkiyə ilə razılaşma Ankaranın Astana ilə müdafiə əməkdaşlığını gücləndirəcək. Türkiyə hökuməti Mərkəzi Asiya dövlətlərinin silahlı qüvvələrinin inkişafında aparıcı rol almağa çalışır. Qobl hesab edir ki, Qazaxıstanla gəmilərin tikintisinə dair razılaşma bu planın bir hissəsidir.

Üçüncüsü, həm Rusiya, həm də Qazaxıstan Xəzər dənizinin şimal hissəsində dayazlaşmanın strateji və iqtisadi nəticələrindən narahatdır. Gələcəkdə Türkiyə ilə razılaşma Qazaxıstana strateji üstünlük verə bilər, çünki onun sərəncamında dayaz sularda manevr etmək üçün daha uyğun olan kiçik gəmilər olacaq.

Beləliklə, gəlinən qənaət bundan ibarətdir ki, Moskva ilə Astana arasında gərginlik Ukrayna müharibəsi fonunda daha da artacaq. Qazaxıstanın Qərbin aparıcı şirkətləri ilə milyardlıq investisiyaları və əməkdaşlıq sazişləri onu çoxvektorlu siyasət aparmağa sövq edəcək.

MUSİQİSİ İLƏ İNSANLARA ÜMİD VERMƏYİ BACARAN BƏSTƏKAR TƏRLAN MƏMMƏDHÜSEYNOVLA SƏMİMİ SÖHBƏT

“TOYLARDA ÜÇ UNİVERSİTET BİTİRMİŞ KİMİ OLDUM”



SÖHBƏTLƏŞDİ
AYGÜN ASİMQIZI
aygunasimqizi@kaspi.az

Tərlan Məmmədhüseynov: “Hər gün toya getdiyim üçün gün ərzində 6-7 saat musiqi ilə məşğul olmuşam. Ən böyük imtahanı həmin toylarda vermişik. Toya getmədiyim günlərdə də səkkiz saat evdə məşq etmişəm”.

“İnsanın ümidini özünə qaytaran bir əsər”, “Dinlədikcə içimdə nəyəsə ümidin olduğunu hiss edirəm”, “Mental olaraq çökdüyüm zaman ilk dinlədiyim musiqidir, hər zaman məni yenidən canlandırır”... Bunlar onun “Ümid rəqsi” kompozisiyasına “Youtube”da yazılan rəylərdən sadəcə bir neçəsidir. Bəli, o, musiqisi ilə insanlara ümid verməyi bacarıb. Bundan öncə “Səs” ilə insanların qəlbinə toxunmuşdu. Söhbət bəstəkar Tərlan Məmmədhüseynovdan gedir. Hər iki bəstənin rəy bölməsində bu tipli musiqilərin davamlı olması istənilir. Niyə sevənlərini intizarda saxlayır? Həmsöhbətimiz olan bəstəkardan elə bunu da soruşacağıq.

Qeyd edim ki, T.Məmmədhüseynov müğənnilər üçün mahnılar bəstələyir, aranjiman edir. Aygün Kazımova (“Lya lya fa”, “Gecə yarı”), Röya (“Toxun mənə”, “Sevgiyə bax”), Günay İbrahimli (“Sənə bağlanıram”, “Sevgindən dəli oluram”), Elçin Cəfərov (“Səndən əl çəkirəm”, “Mənə onu çağırın gəlsin”), Gülay (“Doya-doya”), Yaşar (“Bilməzdim”) və digər məşhur müğənnilər üçün mahnılar bəstələyib. Eyni zamanda “Zəhər tuluğu” filminin, “Bacanaqlar”, “Üç bacı”, “Bozbash pictures” kimi serialların musiqi müəllifidir.

● Tərlan bəy, musiqiçi ailəsində böyümüsünüz. Mühit sizi musiqiyə necə gətirdi?

● Mühit deməzdim, ailəm məni bu sənətə gətirib. Gözümü açandan evdə musiqi səsləri eşitmişəm.

● Məktəb vaxtı toylara da getmisiniz. Ara-sıra gedirdiniz, ya davamlı olaraq?

● Bəli, məktəbli olduğum vaxtlarda yeddi il davamlı olaraq toylara getmişəm.

● Nə yaxşı toy sektorunda davam etmədiniz?

● Çünki marağım daha çox studiyaya, aranjiman etməyə, mahnı yazmağa idi. Ona görə məktəbi bitirəndən sonra toylara getmədim.

● Yeddi illik bir toy musiqiçisi təcrübəniz sizə nə öyrətdi?

● Çox şey öyrətmişdi. Toylarda Üç universitet bitirmiş kimi oldum. Universitetdə bizim qrupda toydan gələn bircə mən idim. Musiqi texnikumlarından gələnlər var idi. Onların hamısından güclü idim. Hər gün toya getdiyim üçün gün ərzində 6-7 saat musiqi ilə məşğul olmuşam. Həm də bizim kənddəki toylar başqa idi. Müğənni toyda oxuduğu yerdə musiqini yaxşı bilən ağsaqqallar var idi, mahnını saxlatdırırdılar, deyirdilər ki, filan şöbəni düz oxumadın. Ən böyük imtahanı həmin toylarda vermişik. Toya getmədiyim günlərdə də səkkiz saat evdə məşq etmişəm.

“BİR HƏFTƏ ÖZÜMƏ GƏLƏ BİLMƏDİM”

● Bəstəkarlıq üzrə təhsil aldınız?

● Bəstəkarlıq üzrə fərdi dərs almışam. Ali təhsilim isə musiqi müəllimliyi üzrədir. Atam, anam, qardaşlarım müəllimdirlər. Mənə də dedilər, istəmədim. Çünki müəllimliyə xas xüsusiyyətləri özümdə görmürdüm. Dedilər ki, Mədəniyyət və İncəsənət Universitetində müəllimlik olmayan ixtisaslar yazırıq. İmtahan verdim, ödənişsiz qəbul oldum. Gəlib baxıram ki, Pedaqoji Universitetin musiqi müəllimliyini yazıblar. Bir həftə özümə gələ bilmədim. İndi isə “Nə yaxşı ki, belə olub” deyirəm.

● Fikrinizi dəyişdirən nə oldu?

● Universitetdə Sənan adlı dostum var idi. Dedi ki, “Şeron” qrupuna düzəlmişəm, sən də musiqini, aranjimanı bilirsən, gedək Rüstəmlə tanış ol. Studiyada da işləyə bilərsən. Belə-belə başladım. İnsanın yolunu Allah açmalıdır. Mənim də yolumu belə açdı.

● İlk bəstələriniz yadınızdadır?

● Ümumiyyətlə, bütün mahnılarımı necə yazmağım, hansı hisslər altında ərsəyə gətirməyim yadımdadır. 2-3 mahnı var ki, onları necə yazmışam, xəbərim olmayıb. Dostlar dedilər ki, mahnı yaz. Otardum yazdım, çıxdım getdim. Kefim də yox idi. Sonra gəlib qulaq asdım, gördüm doğrudan da yaxşı mahnı alınıb.

● Yəni hər mahnının öz tarixçəsi var?

● Söz yazarı Azər Şirin həmişə deyirdi ki, mənə vəhy, siqnal gəlməsə, nədənsə ilhamlanmasam, şeir yaza bilmirəm. Deyirdim ki, ilham nədir, otur yaz. Mən istəyəndə, oturub musiqi yazırdım. İllər keçdikcə özüm də dərk etdim ki, anında yazma mənim texniki bacarıqlarımdır. Həqiqətən də insana o ilham gəlməlidir. Özüm də bilmədən nədənsə ilhamlanıram, təsirlənib yazıram. Bu səbəbdən hər musiqinin bir tarixçəsi var. Piano arxasında nə isə yazanda gözümün önündə xəyali olaraq bir tablo canlanmalıdır.

● “Ümid rəqsi” kompozisiyanıza “Youtube”da yazılan rəyləri oxudum. Hər kəs fərqli hisslər altında bunu dinlədiyini və musiqinin ona ümid verdiyini yazıb. Bəs siz hansı hisslər altında bu musiqini yazmısınız?

● Mən uşaq vaxtından bu yana kefim yaxşı olmayanda, mütləq mahnıya qulaq asmışam. Dinlədiyim mahnılar mənə enerji verib. Fikirləşdim ki, neçə illərdir başqalarının yazdığı mahnılara qulaq asıb motivasiya almışam. Qoy mən də elə bir musiqi yazım ki, onu dinləyən insanın içindəki ümid oyansın. Məndə belə xüsusiyyət var, istənilən adamın ab-havasına düşə, narahatlıqlarını hiss edib onu pianoya ötürə bilirəm. Ümid istəyən insanların əhvalını hiss etmişəm, onların hisslərini xəyalımda canlandırıb musiqiyə köçürməyə çalışmışam.

> “Həmişə mahnını baha satmışam. Dostumdur, Xalq artistidir, amma mahnını öz qiymətinə satmışam. Pulsuz, yaxud çox ucuz vermirəm.”

“MÜĞƏNNİLƏRİN 90 FAİZİ NƏ İSTƏDİYİNİ BİLMİR”

● Rəydə bir qrup isə bu tip mahnıların davamı gəlsin deyir. “Ümid rəqsi” 2018-ci ildə təqdim olunub, ondan sonra hələ ki kompozisiya yoxdur.

● “Səs” kompozisiyasını yazandan dörd il, “Ümid rəqsi”ni isə yazdıqdan üç il sonra yayımlamışam. Bilirsiniz, mən bir az başqa cür yaşamağa üstünlük verirəm. İllah ki, bu sənətdə olmalıyam, nəsə etməliyəm - kimi düşünmürəm. Nəyisə təqdim etmək xatirinə işləmirəm. Bəstələri yazmaq üçün gərək rahat olum, fokusumu ora verə bilim. Müğənnilərlə işlədiyim üçün kompozisiya yönüm həmişə arxa planda qalıb. İki işi eyni vaxtda görə bilmirəm. Gərək bir işi bitirim, sonra başqasına fokuslanım. 2021-ci ildə müğənnilərə mahnı yazmağa fasilə verdim, o müddətdə 5-6 bəstə yazdım. Yavaş-yavaş onları təhvil vermək haqqında düşünürəm.

● Müğənnilərlə işləməyinizə gələk. İlk olaraq “Şeron” qrupu ilə başlamısınız.

● “Şeron” qrupu üçün yazdığım “Tək sən” mahnısı mənim yazdığım ilk peşəkar mahnı idi. Ondan əvvəlkilər peşəkar olmayıb. Çünki məktəbdə yazdığım mahnılar idi. Davamlı olaraq Elçin Cəfərov üçün yazırdım. Sonra artıq digər sənətçilər də mahnılar istəməyə başladılar. Beləliklə, müğənnilərlə işlərə daha çox yönəldim.

● Bəstəkar kimi müğənnilərlə işləmək necədir?

● Əvvəl çox əla idi. İndi çətinləşib. Əvvəllər mahnı yazırdın, o mahnıya mən də iddialı idim, özlərini o mahnıda tapırdılarsa, həmən üstünə düşüb işləyirdilər. İndi mahnı qalır orada, üstündən uzun zaman keçdikdən sonra müğənni ifa etməyə başlayır. Mən artıq o moddan çıxmış oluram. Müğənnilərlə ən uğurlu işlərim yazılan kimi oxunub təhvil verilən işlərimdir. İndi müğənnilərin 90 faizi nə istədiyini bilmir.

● Müğənnilərin özləri də son illər mahnı bəstələyirlər. Bu, bəstəkar işinə marağı azaldıb?

● Maraq azaldığını öz təcrübəmdə hiss etmirəm. Bəstəkarlığa iş kimi də baxmıram. Musiqi ruha xidmət edir, mahnı yazmaq da ruhdan gələməlidir. O da iş ola bilməz. Mən özü mahnı yazan müğənniləri dəstəkləyirəm.

● Müğənnilərin yazdıqları mahnılar necədir?

● Mənə görə pis mahnı yoxdur. Bəlkə də bunu dərk etməyənlər olacaq. Çünki 25 yaşıma qədər mən də dərk etməmişəm. Deyirdim ki, pis mahnı var, bu, xoşuma gəlmir. Bu sənəti öyrənəndə gördüm ki, doğrudan da pis mahnı yox imiş. Bəzən bir mahnını bir sənətçi oxuyur, yaxşı alınmır, başqasında gözəl alınır. Deməli, ifa edəndən də asılıdır.

“7-8 DƏFƏ SÖZÜ DƏYİŞƏ BİLİRƏM”

● Yazdığınız musiqiləri sonradan dinləyirsiniz?

● Son bir il ərzində dinlədiyim olur. Bunu mənə bir dostum öyrətdi. Mənə elə gəlir ki, insan 30 ildən bir sənətini dəyişməlidir. O mənada ki, dəyişiklik olsun. Sənət dəyişmə ab-havasına arada mən də düşürəm. Sənətimi dəyişmirəm, sadəcə “İnsan nə qədər musiqi ilə məşğul olar?” kimi düşündüyüm olur. O zamanlarda yaxşı musiqilərimi açıb dinləyirəm və sonra özümə deyirəm ki, sənin işin budur (Gülür). Ümumiyyətlə, mahnı studiyadan çıxdısa, onu dinləmirəm.

● Bir dövr var idi ki, kliplər önəmli idi, bir dövr oldu ki, sözlər, bir dövr musiqilər. Bu gün öndə olan nədir?

● İndi bir az qarışıq dövrdür. Sözlər indi də öndədir. Əvvəl sözlər öndə deyildi. Deyirdilər ki, nəqarətin sözləri yaddaqalan olsun, bəsdir. Nəqarət əla oldusa, bənddə nə yazsan, gedirdi. İndi mahnının girişi bütün mahnı qədər maraqlı olmalıdır. Bütün dünya prodüserlərinin tələbidir. Yeni mahnı təqdim edilən kimi bir az irəli yığırsan ki, görüm nə demək istəyir? Deməli, ilk 3-5 saniyəsində səni cəlb etməlidir. Mahnının tutmağında nəqarətdən sonra gələn hissənin də üzərinə yük düşür. İnsanları nəqarətdən sonra da mahnıda saxlaya bilməlisən.

● Bəs sizin sözlərə yanaşmanız necədir?

● Sözlə bağlı çox diqqətli adamam. Bir mahnı ərsəyə gələnə qədər 7-8 dəfə sözü dəyişə bilirəm. Hazır şeirə mahnı yazacamsa, bu, lap çətindir. Hər sözə mahnı yaza bilmirəm. Bir dəfə studiyada idik, dostum Ceyhun şeirlər uzatdı, dedi ki, Azad İsayev adında oğlan yazıb. Üçüncü vərəqdə sözlər məni tutdu. Mahnını bir dəfəyə oxuya-oxuya yazdım durdum. Beləliklə, “Sevgiyə bax, dərdə bax” mahnısı yarandı. Söz artıq mənə tablo verdi, çox rahat yazdım.

Fotolar: Əhməd Hətəmzadə/Global Media Group

“DOSTUMDUR, XALQ ARTİSTİDİR, AMMA...”

● Sənət adamları ilə işləyənə qədər və sonra qazancınız necə dəyişdi?

● Əvvəl də qazancım çox yaxşı idi. 12 yaşımdan rəqs ansamblında musiqiçi kimi işləyirdim deyə, elə o vaxtdan maaş alırdım. 11 yaşımdan toylara getmişəm. Özümü tanıyandan evdən pul almamışam, evə pul vermişəm. Pul qazanırdım, xərcləməyə yerim olmayıb. Kənddə hara xərcləyəsən? Universitet vaxtı studiyada işləmişəm, oradan da çox yaxşı qazanmışam. İndi çox müğənnilərə deyirəm ki, mahnı yazmıram. İlk dedikləri bu olur ki, bəs necə dolanırsan? Deyirəm ki, mən o şeyləri fikirləşmirəm. Öz işimlə məşğul olsam, işimi yaxşı görsəm, pul özü mənə gəlir.

● Ancaq mahnıları baha qiymətə satırsınız.

● (Gülür) Həmişə mahnını baha satmışam. Dostumdur, Xalq artistidir, amma mahnını öz qiymətinə satmışam. Pulsuz, yaxud çox ucuz vermirəm. Ola bilər ki, yeni başladığım dönəmdə müğənnilərə pul demirdim. Sonradan artıq elə olmadı. Pul söhbəti deyil. Mənim özümə, işimə verdiyim dəyərdir.

● Bir mahnı yazmaq nə qədər vaxtınızı alır?

● Mən mahnı yazmıram, özümü bəstəkar da adlandırmıram. Bu, sanki vergi kimidir. O gəlməsə, yaza bilmirsən. Başladımsa, bitirirəm.

“TAYI-BƏRABƏRİ OLMAYAN KONSERT XƏYAL EDİRƏM”

● Gələcəkdə özünüzü harada görürsünüz?

● Pandemiyadan öncə bir xeyli yoruldum. Biznesə girişdim. Cəhd etməkdən çəkinən, şablon yaşayan adam deyiləm. Uşaq vaxtı özümü toylarda deyil, studiyalarda, müğənnilərlə işləyən kimi görürdüm. Studiyada illərlə işlədim, sanki adiləşdi. 10-15 il sonra özümü studiyada işləyən kimi - aranjimanda görmürəm. Bu, bir mərhələdir. Bir yerdə dayanan kimi elə bilirəm ki, ölmüşəm. Daim özümü inkişaf etdirirəm. Hazırda İsveçdən onlayn kurs alıram.

● Kompozisiyaları daha çox sevirsiniz?

● Ümumiyyətlə, musiqi yazanda çox böyük sevgiylə işləyirəm. Kompozisiyada isə ancaq özüm varam. Müğənni, söz müdaxiləsi yoxdur. 2021-ci ildə ancaq kompozisiyalara yönəlmişdim. Çünki özüm də narahat idim. Allah sənə bir istedad, bacarıq veribsə, onun haqqını vermək lazımdır.

● Yeni kompozisiyalar nə vaxt yayımlanacaq?

● Çox tezliklə “Yelləncək” adlı kompozisiyamı təqdim edəcəm. Şüarı da “Dünya bir yelləncəkdir”. Yelləncək üstündə bütün insan ömrünü göstərmək istəyirəm.

● Bəs konsert?

● Növbəti illərdə konsert vermək istəyirəm. Tayı-bərabəri olmayan bir iş xəyal edirəm. Bilirəm ki, onu edə bilərəm. Əvvəl o gücü özümdə hiss etmirdim, indi hiss edirəm.

İSTİRAHƏT ZAMANI İTKİN DÜŞƏNLƏR

İstər xarici, istər daxili səfərlər zamanı istirahətə gedərkən bəzi məqamları nəzərə almaq lazımdır. Turistlər öncə gedəcəkləri yerin təyinatını, spesifik xüsusiyyətlərini qarşılaşa biləcəkləri riskləri, orada indiyə qədər baş vermiş təhlükəli anları araşdırmalı, sonra qərar verməlidirlər.

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Keçən il hindistanlı turistin Zaqatala ərazisində itkin düşməsi hadisəsini yəqin ki, bir çoxumuz xatırlayırıq. Turistlərin, rayonlarımıza səfər edən şəxslərin itkin düşməsi halları tez-tez təkrarlanır. Belə hal ən çox Qax, Zaqatala kimi şimal bölgələrimizdə baş verir. Həmin ərazilərdə meşədə azanların, heyvan hücumuna məruz qalanların sayı xeyli çoxdur. Bəs bu hallar niyə yaşanır? İnsanlar özlərini belə hallardan necə sığortalaya bilərlər?

QEYRİ-PEŞƏKAR OLDUQLARI ÜÇÜN CIĞIRI İTİRİRLƏR

Turizm məsələləri üzrə ekspert Əziz Şiriyev düşünür ki, vətəndaşlar tanımadıqları ərazilərdə özbaşına səyahət etməyə çalışmamalıdırlar: "Bu, əsasən məlumatsızlıqdan irəli gəlir. Belə hallar daha çox hiking və trekking zamanı olur. Trekking peşəkarların hər hansı bir zirvəyə ilk dəfə cığır açması, yürüş etməsinə deyilir. Hiking isə həvəskarların peşəkarların açdığı cığırla yürüşüdür. İstər xaricdən gələn, istər yerli vətəndaşlar peşəkar olmadıqları halda həvəskar şəkildə zirvələrə qeydə alınmamış yollarla qalxıb, fəth etmək istəyirlər. Amma bu, asan deyil. Çünki qeyri-peşəkar olduqlarından cığırı itirirlər".

PEŞƏKAR İNSANLARLA YOLA ÇIXMAQ LAZIMDIR

Ekspertin fikrincə, hər kəs belə yürüşlərə çıxmamalıdır: "Maarifləndirmə işləri aparılmalı, insanlarda məlumat olmalıdır. İkincisi isə, yalnız peşəkar insanlarla yola çıxmaq lazımdır. Fiziki baxımdan özündə güc hiss etməyən insanlar belə yerlərə səfər etməməlidirlər. Çünki hiking ekstrim turizm növünə aiddir. Ona görə mütləq hazırlaşmaq lazımdır. Əgər dayanarlarsa, mütləq geri qayıtmalıdırlar. Çünki gedib qabaqdakı qrupa çata bilməyəcəklər və azacaqlar".

ADİ TURLARDA BELƏ PROBLEMLƏR OLMUR

Ə.Şiriyevin sözlərinə görə, ekstrim yerlərə tək getmək əvəzinə, turla, qruplarla səyahət etmək daha yaxşıdır: "İlk növbədə kifayət qədər məlumat toplamaq gərəkdir. Əşyalara - çanta, geyim, ayaqqabı və sairə dair məlumatları dəqiq bilmək lazımdır. Ayaqqabılar sürüşkən olmamalıdır. Bu amillər hamısı nəzərə alınmalıdır. Sadalanan amillərə riayət edilməsə, təbii ki, itkilər çox olacaq. Amma daha yaxşı olar ki, yürüşə çıxarkən peşəkar bələdçi ilə getsinlər. Adi turlarda belə problemlər olmur. Çünki turlar çox rahat yerlərdə həyata keçirilir. Həmin turlarda da turistlərin yanında mütləq rəhbərlər olur".

HƏYATINIZA SON QOYA BİLƏCƏK TƏHLÜKƏLƏRİ NƏZƏRƏ ALIN

Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyevin fikrincə, təhlükəsizlik amili belə məsələlərdə çox vacibdir: "İstər xarici, istər daxili səfərlər zamanı istirahətə gedərkən, turlar təşkil edərkən bəzi məqamları nəzərə almaq lazımdır. Bu, həmçinin fərdi şəkildə rayonlara, xarici ölkələrə istirahət, səfər üçün gedənlərə də aiddir. Adrenalin həvəskarları, ekstrim xoşlayanlar bu cür yerləri özlərinə istirahət üçün seçərkən təhlükəsizliyi ön plana çəkməlidirlər. Öncə gedəcəkləri yerin təyinatını, spesifik xüsusiyyətlərini, qarşılaşa biləcəkləri təhlükələri, orada indiyə qədər baş vermiş təhlükəli anları araşdırmalıdırlar. Bilməlidirlər ki, getdikləri yerdə hansı təhlükələrlə qarşılaşa bilərlər, bu zaman nə etməlidirlər, haradan kömək çağırmaq lazımdır, gözlənilməyən təhlükə olduqda hansı davranışları sərgiləməlidirlər, bu təhlükələrlə qarşılaşmamaq üçün nə etmək lazımdır... Bunların hamısını diqqətə almaq lazımdır. Ondan sonra səfəri təşkil etmək olar.

Bir çox hallarda insanlar sadaladıqlarımızı diqqətə almır. Gedib hansısa uçuruma, dumana, yağışa, uçquna düşürlər, azırlar, vəhşi heyvanların hücumuna məruz qalırlar, dərəyə düşür, xəsarət alır, yaxud köməksiz vəziyyətdə həyatlarını itirirlər".

Elmar Nurəliyev

TƏK SƏFƏR EDƏNLƏR ÜÇÜN TƏHLÜKƏ RİSKİ DAHA YÜKSƏKDİR

Əziz Şiriyev

Ekspert bildirdi ki, səfərlər turizm şirkətlərinin iştirakı ilə olduqda təhlükə riski minimum olur: "Tur şirkətləri gedəcəkləri yerin təyinatı, yollar, təhlükəsizlik tədbirlərini nəzərə alırlar. Götürəcəkləri əşyalar, avadanlıqlar, qurğular, ilk tibbi yardım vasitələri və s. hamısı təmin olunur. Həmçinin, əraziyə bələd olan rəhbərlər olduğu üçün təhlükə riski minimumdur. Tək səfər edən insanlar üçün təhlükə riski daha yüksəkdir. Bəzən insanlar ərazini tanımır, birinci dəfə gedir. Üzərlərində çətin vəziyyətə düşdükdə yardım edə biləcək heç nə olmur. Bəzən şəbəkə olmayan yerlərdə qalırlar. Amma bələdçi ilə səyahət zamanı ərazini göstərən GPS cihazları, ilk tibbi yardım vasitələri, kömək üçün şəbəkəsiz radio rabitə qurğuları var. Həmçinin, vəhşi heyvanların hücumuna qarşı alətlərə sahibdirlər".

E.Nurəliyev qeyd etdi ki, vətəndaşlar gedəcəkləri yeri araşdırarkən bunu internetdən öyrənməkdənsə, turizm şirkətlərindən soruşsalar daha yaxşı olar.

ZIĞ GÖLÜNÜN BƏRPASI NİYƏ YUBANIR?

Bərpasına dair 2014-cü ildə iki sərəncam imzalansa da, Zığ gölü ilə bağlı vəziyyət doqquz ilə yaxındır ki, dəyişmir. Cavabdeh qurumlar isə, artıq layihənin yekunlaşmaq mərhələsində olduğunu deyirlər.

RUFİK İSMAYILOV
rufikismayilov@kaspi.az

Zığ gölünün bərpası, mühafizəsi və ondan istifadə sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədi ilə Prezident İlham Əliyev 15 oktyabr 2014-cü il tarixdə sərəncam imzalayıb. Həmin sərəncamla bu məsələ ilə bağlı idarəetmə Ekologiya və Təbii Sərvətlər, keçmiş İqtisadiyyat və Sənaye nazirliklərinə həvalə edilib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinə (ETSN) gölün bərpası, onun mühafizə zonasının istehsalat və məişət tullantılarından təmizlənməsi, mühafizəsi, ekoloji vəziyyətinin yaxşılaşdırılması, gələcəkdə ondan səmərəli istifadəni təmin etməsi, habelə gölün qorunub saxlanılmasına nəzarəti həyata keçirmək tapşırılıb. "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə isə, gölün mühafizə zonasına tullantı sularının təmizlənmədən axıdılmasının qarşısını almaq üçün zəruri tədbirlər görmək həvalə olunub.

Anar Cəbrayıllı

Bundan başqa, Bakı Şəhər İcra Hakimiyyətinə tapşırılıb ki, gölün mühafizə zonasına istehsalat və məişət tullantıları atılmasının, göl səthinin kiçilməsinə səbəb olan kənardan torpaq gətirilib yayılmasının qarşısını alsın.

EHTİYAT FONDDAN İKİ MİLYON MANAT VƏSAİT AYRILIB

Bundan başqa, ölkə rəhbəri 15 oktyabr 2014-cü il tarixdə "Zığ gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması ilə bağlı tədbirlər haqqında" ikinci bir sərəncam da imzalayıb. Mühəndislik və layihələndirmə işlərinin görülməsi, gölün mühafizəsinin təşkili və ətraf mühitə təsirinin qiymətləndirilməsi sənədinin hazırlanması məqsədi ilə Prezidentin Ehtiyat Fondundan İqtisadiyyat və Sənaye Nazirliyinə ilkin olaraq iki milyon manat vəsait ayrılıb. Dövlət başçısının 21 fevral 2021-ci il tarixdə imzaladığı fərmana uyğun olaraq, İqtisadiyyat Nazirliyi Zığ gölünə aid bütün sənədləri və məlumatları ETSN-ə təhvil verib. Bununla da, Zığ gölündən istifadə və onun mühafizəsi sahəsində idarəetmə sözügedən nazirliyə həvalə olunub.

Sərəncamların 2014-cü ildə imzalandığını nəzərə alsaq, Zığ gölünün bərpası layihəsi başa çatdırılmalı, ərazidə müasir park, oyun və əyləncə meydançaları, yaşıllıq zolaqları salınmalı idi. Lakin sərəncamın imzalanmasından 9 ilə yaxın vaxt keçsə də, ortada bir iş yoxdur. Səbəb nədir? Bu suala cavab tapmaq üçün sərəncamda adları qeyd olunan qurumlara sorğu ünvanladıq.

"Azərsu" ASC-nin Mətbuat Xidmətinin rəhbəri Anar Cəbrayıllı bildirdi ki, sözügedən ərazidə layihə icra olunmayıb. Zığ gölünün ekoloji vəziyyətinin sabitləşdirilməsi ilə bağlı layihələrin tam yekunlaşmadığını xatırladan "Azərsu" sözçüsü vurğuladı ki, hələ də Zığ qəsəbəsinin bir hissəsinin tullantı suları təmizlənmədən gölə axıdılır.

Bakı Şəhər İcra Hakimiyyətindən hər hansı məlumat öyrənə bilmədik.

LAYİHƏNİN İCRASI İLƏ BAĞLI DƏQİQ TARİX

ETSN-nin Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsinin rəisi Nazim Mahmudov isə bildirdi ki, Prezidentin 25 fevral 2021-ci il tarixli fərmanından sonra nazir müavini Vüqar Kərimovun rəhbərliyi altında geniş tərkibli işçi qrup yaradılıb, Zığ gölündə monitorinq-tədqiqat işlərinin aparılması davam etdirilib. Onun sözlərinə görə, gölün mövcud vəziyyəti tam öyrənilib, təhlil olunub: "Tədqiqat işlərinin ardınca gölün ilkin reabilitasiya ilə bağlı layihə sənədlərinin hazırlanmasına başladıq.

Layihə hazırda yekunlaşmaq mərhələsindədir. Son tərtibatı Fövqəladə Hallar Nazirliyinin müvafiq idarəsinə ekspertiza üçün təqdim olunub. Bu layihə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə də təqdim edilib. Hər iki dövlət qurumundan icazə alındıqdan sonra layihənin icrası ilə bağlı dəqiq tarix demək mümkün olacaq".

Nazim Mahmudov

ZIĞ GÖLÜNÜN XƏZƏR DƏNİZİ İLƏ DƏ ƏLAQƏSİ OLACAQ

İdarə rəisi söylədi ki, layihədə Zığ gölünün 120 hektarlıq su sahəsinin 40 hektar əraziyə qədər kiçildilməsi, neftlə çirklənmiş ərazilərin reabilitasiya olunması, neft və bərk tullantılardan təmizlənməsi nəzərdə tutulub: "Göl ətrafında təxminən 100 hektar ərazini əhatə edəcək yaşıllıq zolağı salınacaq. Perspektivdə bu ərazidə kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyəti üçün şərait də yaradılacaq. Gölün qərb tərəfində sosial evlərin tikilməsi üçün ərazinin ayrılması kimi planlar da var. Amma buna qədər ilk növbədə gölə olan müdaxilənin qarşısı alınmalıdır. Hazırda Zığ qəsəbəsindən iki müxtəlif istiqamətdən məişət və tullantı suları birbaşa gölə axıdılır. Layihədə bu axıntının qarşısının alınması və Hövsandakı sutəmizləyici qurğuya yönəldilməsi, burada təmizləndikdən sonra göl ətrafında salınacaq yaşıllıq zolaqlarının suvarılmasında, həmçinin göldə su balansının saxlanılmasında istifadə olunması nəzərdə tutulub. Layihəyə uyğun olaraq, Zığ gölünün Xəzər dənizi ilə də əlaqəsi olacaq. Göldə balansı qorumaq üçün su səviyyəsi gözlənilən həddi keçdiyi zaman suyun bir qismi Xəzər dənizinə bu əlaqə vasitəsilə axıdılacaq. Layihə təsdiqləndikdən və icrası üçün vəsait ayrıldıqdan sonra orada nəzərdə tutulan bütün bu işlər ardıcıllıqla həyata keçiriləcək".

SƏBƏB NEFT GƏLİRLƏRİNİN AZALMASIDIR?

Ekoloq Samir İsayev bildirdi ki, tədbirlər planında hədəflər açıq şəkildə qoyulub: "2014-cü ildə ölkəyə valyuta axını çox idi. Gəlirlərə uyğun olaraq ölkədə bir sıra iri layihələr həyata keçirilirdi. Lakin 2014-cü ilin sonundan başlayaraq neftin qiyməti kəskin aşağı düşdü, büdcə gəlirləri azaldı. Bir sıra layihələr dondurduldu. Bakının gölləri ilə bağlı layihələr də bu sıraya daxil edildi. Ola bilsin layihə hissə-hissə icra olunsun. Amma nəzərdə tutulan intensivlik müşahidə edilmir. Hazırda isə dövlətin, hökumətin qarşısında dayanan əsas həlli vacib məsələ işğaldan azad olunan rayonların bərpasıdır. Bu səbəbdən, perspektivdə Bakıda reallaşdırılacaq layihələr paytaxtın infrastruktur layihələri ilə əlaqələndiriləcək. Əgər əvvəllər göllərin bərpası sırf ekoloji layihə idisə, hazırda belə məsələlərə sırf infrastruktur layihəsi çərçivəsində yanaşılır. Yəni, sözügedən ərazinin inkişafı üçün hansısa layihə icra olunacaqsa, buradakı gölün bərpası, mühafizəsi, ətrafının abadlaşdırılması, parka, yaşıllıq zolağına çevrilməsinə də diqqət yetiriləcək".

XƏSTƏXANALARIMIZ KİBERHÜCUM TƏHLÜKƏSİ İLƏ ÜZ-ÜZƏ

Xəstə məlumatları çox qiymətlidir. Həm ticari, həm də pis niyyətlə bu məlumatlardan istifadə oluna bilər. Kibertəhlükəsizliyi təmin etmək üçün milli mütəxəssislərə və texnoloji həllərə ehtiyacımız var.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

- "Wi-Fi"ın şifrəsi nədir?
- İstifadə etmək üçün şəxsiyyət vəsiqəsi və telefon nömrənizi qeyd edin, zəhmət olmasa.
- Axı mən xarici vətəndaşam?
- Təəssüf ki, təhlükəsizlik baxımından bu ikisi olmasa, qoşula bilməzsiniz.
- Xəstəxanaya kiberhücum kimin nəyinə lazımdır axı, hansı təhlükədən qoruyursunuz? (Pasiyent narazılığını bildirir)

Bu dialoqa Türkiyədə xəstəxanalardan birində şahid olduq. Tibb müəssisəsində "Wi-Fi" şəbəkəsinə qoşulmaq üçün mütləq şəxsiyyət vəsiqəsi ilə giriş etməlisiniz. Dialoqun üzərindən çox keçməmişdi ki, ABŞ-də xəstəxanalara kiberhücum barədə xəbərlər yayıldı. Maraqlıdır, Azərbaycanda xəstəxanalar belə təhlükələrdən mühafizə olunurmu? Ümumiyyətlə, haker xəstəxanadan nə istəyir? Tibb müəssisələrində kiberhücumdan qorunmaqla bağlı sistemin qurulmasının əhəmiyyəti nədir? Bu suallarla mütəxəssislərə müraciət etdik.

SƏHİYYƏ SEKTORU ƏSAS HƏDƏFDİR

Kibertəhlükəsizlik üzrə ekspert Berna Baysal deyir ki, səhiyyə sektoru kibercinayətkarlar üçün əsas hədəfə çevrilib: "Haker xəstəxanaya müxtəlif səbəblərdən hücum edə bilər. Məqsədi məlumat sızdırmaq, sistemi bloklayıb pul müqabilində açmaq, yaxud tamamilə şüursuz şəkildə öz qabiliyyətlərini nümayiş etdirməkdir. Hakerlər tez-tez müəssisələrin kompüter şəbəkəsinə girişini bloklamaq üçün "ransomware" proqramları yerləşdirir və sonra pul tələb edirlər. Ötən il ABŞ-də 140-dan çox xəstəxana və 700-dən çox tibb məntəqəsi olan səhiyyə sisteminə əməliyyatları və həkim ziyarətlərini təxirə salan hücum edilmişdi".

NƏZARƏT MEXANİZMLƏRİ OLMALIDIR

Həmsöhbətimiz bildirir ki, tibb müəssisələrində "Wi-Fi" şifrəsinin şəxsiyyət vəsiqəsi ilə verilməsi belə, problemi tam həll etmir: "Bu üsulun əsas məqsədi xəstəxana şəbəkəsindən istifadə edərək olunacaq kiberhücumlardan qorunmaqdır. Şəxsiyyət vəsiqəsi məlumatlarını və mobil nömrəni daxil etmək kiberhücumdan əsla qorumaz. Burada diqqət yetirəcəyimiz məqam nəzarət mexanizminin (deterrent control) olmasıdır. Həmin şəbəkə vasitəsilə paralel sızma olaraq adlandırdığımız üsulla vətəndaşlara aid kritik məlumatlara icazəsiz girişlər etmək mümkündür. Vətəndaşların xəstəlik məlumatları bütün dünyada strateji və kritik məlumatlar olaraq təsnifləndirilir. 17 iyulda Nazirlər Kabineti tərəfindən "Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi" qaydaları təsdiqləndi. Bu qaydalara əsasən, xəstəxanaların şəbəkələrinin qorunması üçün bütün növ kontrol mexanizmlərinin olması mütləqdir".

TEXNOLOJİ HƏLLƏRƏ EHTİYACIMIZ VAR

Mütəxəssis vurğuladı ki, xəstə məlumatlarının qorunması hər bir ölkə üçün strateji əhəmiyyət daşıyır: "Kibertəhlükəsizliyi təmin etmək üçün milli mütəxəssislər və texnoloji həllərə ehtiyacımız var. Bir təşkilatda, xüsusilə də, xəstəxana kimi kritik infrastrukturda vətəndaşların fərdi məlumatlarını qorumaq üçün məlumat bazalarının təhlükəsizliyi təmin olunmalıdır".

İT mütəxəssisi Elvin Abbasov isə deyir ki, xəstəxanalarda kibertəhlükəsizlik və infrastruktur barədə məlumat ala biləcəyimiz hesabatlar yoxdur: "İT infrastrukturu baxımından xaotik idarəetmə var. Müəyyən standartlar olmadığı üçün kim necə istəyirsə, özünə o formada sistemi yaradır. Belə müəssisələr vətəndaş məlumatlarını öz seçimlərinə görə, kağız daşıyıcıda da saxlaya bilərlər, hansısa proqramda da. Təbii ki, bir az inkişaf etmiş, investisiyası olan böyük klinikalarda İT həlləri var. Amma bu nə dərəcə təkmildir və buna kim nəzarət edir? Təəssüf ki, belə bir nəzarət sistemi yoxdur".

MƏLUMATLARIN OĞURLANMASI, FACİƏVİ NƏTİCƏLƏR

Xəstə məlumatlarının əldə edilməsinin təhlükələrinə gəldikdə isə, mütəxəssis vurğulayır ki, bu, faciəvi nəticələrə səbəb ola bilər: "Yəni, hər hansı klinikanın xəstələrinin məlumatlarını əldə etməklə, onların analiz, xəstəlik məlumatlarını dəyişdirə bilərlər. Xəstə sistemdə göstərilən səhv müalicəni alaraq, ölə də bilər. Əslində, tibb müəssisələri bu baxımdan ən təhlükəli sektordur. Aidiyyəti qurumlar bu sektora xüsusi yanaşmalıdır".

Elvin Abbasov

YÜZ FAİZLİK TƏHLÜKƏSİZ SİSTEM YOXDUR

Berna Baysal

Ölkə xəstəxanalarındakı təhlükəsizlik məsələlərinə gəldikdə isə, mütəxəssis bildirir ki, ABŞ nümunəsindən də göründüyü kimi, yüz faizlik təhlükəsiz sistem gözləmək düzgün deyil: "Çünki inkişaf etdirilən təhlükəsizlik tədbirlərinə cavab olaraq yeni hücum texnikaları da eyni sürətlə inkişaf edir. Amma beynəlxalq standartlar çərçivəsində və müvafiq kibertəhlükəsizlik qanunlarına uyğun olaraq, bütün müəssisələr, xüsusən də xəstəxanalar kimi kritik məlumatlara sahib olan qurumlar lazımi tədbirləri görməli və məcburi standartları tətbiq etməlidir. Məsələn, xəstəxanalarda Sağlamlıq Sığortasının Daşınması və Hesabatlılığı Aktı (HIPAA), Elektron Qorunan Sağlamlıq Məlumatı (EPHI) ilə məşğul olan təhlükəsizlik profili olmalıdır. Həmçinin, xəstəxana kimi kritik infrastrukturlarda məlumatın əlçatanlığı, məxfiliyi və bütövlüyünün təmini üçün ölkə qanunvericiliyi çərçivəsində tədbirlər alınmalıdır. Hazırda qanunlara və digər beynəlxalq standartlara əməl etmək üçün yoxlamalar aparılır və dövlət qurumları buna həssaslıqla yanaşırlar. Hər sahədə olduğu kimi, kibertəhlükəsizlik sahəsində də risklər var".

Cəlbedici və dadlı olsa da, TƏHLÜKƏLİDİR

Bir çoxumuzun ən sevdiyi qidalardan biri də qaynadılmış qarğıdalıdır. Bəzən küçədə, yol kənarında əlüstü də atışdırırıq. Lakin ekspertlər deyirlər ki, küçədə satılan qarğıdalıları yemək sağlamlığımıza zərər verə bilər.

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

"Qarğıdalı, qarğıdalı, təzə bişmiş sütül qarğıdalı..." Bu çağırış yəqin hamınıza tanışdır. Hər birimiz həyatımızda bir dəfə də olsa, küçədə bu səsləri eşitmişik. Yay mövsümünün gəlişi ilə küçədə bu çağırışlar başlayır. Böyük qazanlar yol kənarına düzülür. İnsanların gur olduğu ərazilərdə bu mənzərəni daha çox görmək mümkündür. Rayonlara səyahət edəndə də bu qazanlarla qarşılaşırıq. Yol boyu düzülmüş iri qazanlar, içi də qarğıdalı dolu. Qarğıdalı bir çoxumuzun sevdiyi qidadır. Bəs sevdiyimiz qidanın küçədə, yollarda bu şəkildə satılması nə dərəcədə doğrudur? Bu dadlı təamın arxasında görmədiyimiz və bilmədiyimiz məqamlar da var. Bəzən bu qazanların heç qapağı da olmur. Yol kənarında çalışan satıcılar növbəti gün qarğıdalını qaynadarkən bəzən suyunu da dəyişmirlər.



Fəxriyyə Əhmədova

KÜÇƏDƏN ALINMA QARĞIDALI YEMƏYİN

Terapevt Fəxriyyə Əhmədova deyir ki, insanlar qarğıdalını evdə özləri bişirib yesələr daha zərərsiz olar: "Küçələrdə qida məhsullarının satılması, ümumiyyətlə gigiyenik cəhətdən düzgün deyil. Çünki belə vəziyyətdə müxtəlif rotavirus, həmçinin qida toksiki infeksiyaları çox sürətlə yayıla bilir. Son günlər ishal, ürəkbulanma, qusma ilə bağlı şikayətlər xeyli artıb. İnsanlardan tələb olunur ki, özləri gigiyenik qaydalara əməl etsinlər, küçələrdən heç bir qida məhsulu alıb yeməsinlər. Heç kim zəmanət verə bilməz ki, insanlar, belə yerlərdən hansı xəstəliklər tuta bilməz. Ciddi fəsadları, zəhərlənmələrə yol açması mümkündür. Ona görə də insanlar qarğıdalını alıb ev şəraitində özləri də hazırlaya bilərlər. Məsləhət görərdim ki, küçədən alınma qarğıdalı yeməsinlər".

BİŞMİŞ QARĞIDALI ALARKƏN NƏLƏRƏ DİQQƏT ETMƏLİ?

Ekspertin fikrincə, əksər hallarda qarğıdalının suyunun rəngi onun nə dərəcədə təmiz və yeni olmasından xəbər verir: "İnsanların qarğıdalını özlərinin evdə bişirib yemələri daha məqsədəuyğundur. Yox, əgər küçədən alacaqlarsa, baxsınlar ki, təzə və istehlaka yararlı vəziyyətdə olsun. Qarğıdalının tərkibində nişasta var. Ona görə suda çox qalanda su bulanıqlaşır. Əgər yol kənarındakı qazanlarda su bulanıqdırsa, bu, satılan qarğıdalının köhnə olduğunu göstərir. Deməli, qarğıdalı çoxdan bişib ki, su bu qədər bulanıb. Köhnə qarğıdalıdan da uzaq durmaq lazımdır".

SEVDİYİMİZ QİDANIN YARATDIĞI XƏSTƏLİKLƏR

A.Salamov qeyd etdi ki, qarğıdalı bir sıra xəstəliklərə də səbəb ola bilər: "Qida intoleransı - ürək bulanması, ishal və s. hallar da mümkündür. Allergiya da ona görə baş verir ki, qarğıdalının tərkibində rahat həzm olunmayan zülallar var. Bu zülallar həzm olunmadığına, mədədə inteqrans yaratdığına görə müəyyən qaşıntı və təngnəfəslik və s. yaradır. Bu, xüsusilə də allergik xəstələrə, astma xəstələrinə aiddir. Həmçinin, qarğıdalını çox yemək olmaz. Çox yeyəndə insanların mədə-bağırsaq sistemi pozulur. Mütəmadi olaraq qarğıdalı yeyən insanlarda pellaqra xəstəliyi, vitamin çatışmazlığı ortaya çıxır. Bu da qarğıdalının tərkibində niasin və amin turşularının olmaması ilə əlaqədardır".

Ağa Salamov

VİRUS VƏ BAKTERİYALAR SUYA QARIŞIR

Mütəxəssisin sözlərinə görə, çöldə bişən qarğıdalının keyfiyyətinə heç kim zəmanət verə bilməz: "Ümumiyyətlə, nəzarət olunmalı, belə halların qarşısı sanitar epidemioloji stansiyalar, müxtəlif orqanlar tərəfindən alınmalıdır. Amma insanların da məsuliyyətli olması çox vacibdir. İnsanlar özləri məsuliyyət daşımasalar, heç bir inzibati qayda bizi qoruya bilməz. Bilinmir ki, o qarğıdalı nə vaxt, hansı şəraitdə bişirilib. Bəlkə də dünən, yaxud bir gün əvvəl bişirilən qarğıdalı təkrar atılıb qaynadılır və insanlara satılır".

Qida məsələləri üzrə ekspert Ağa Salamov bildirdi ki, küçədə bişirilən həmin qarğıdalılar bir çox infeksiyalara və bakteriyalara məruz qala bilərlər: "Qarğıdalı istehlak edən insanlar allergik

reaksiyaları olmayan insanlar olmalıdır. Məsələn, kiminsə astma xəstəliyi, yaxud bronxlarında hər hansısa problemləri varsa, o insanların qarğıdalıdan uzaq durması daha məqsədəuyğundur. Küçədə satılan qarğıdalılar bir dəfə qaynadılır və saatlarla həmin suyun içində qalır. Hava-damcı yolu ilə gələn bütün virus və bakteriyalar da həmin suya hopur. Küçədə maşınların hərəkəti, insanların təması və s. kimi amillərlə hava-damcı yolu ilə həmin qarğıdalılara hər hansısa bakteriya və virusun hopması ehtimalı yüksəkdir".

Kaspi
Təsisçi
Global Media Group
Baş redaktor
İlham Quliyev
Redaksiya
Baş redaktorun müavini - Azad Əliyev
Müxbirlər – Təranə Məhərrəmova Aygün Əziz, Zərif Salmanlı
Müəlliflər – Azər Nuriyev, Rufik İsmayılov, Böyükxanım Kərimova, Könül Cəfərli, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov
Korrektor – Vüsal Əliyev
Texniki şöbə
Kreativ direktor – Murad Arbay
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov
Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall Ticarət Mərkəzi
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydiyyatdan keçib.
Lisenziya №022264, Qeydiyyat № V 64
Qəzet redaksiya kompyuter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2048
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

BUNUN NƏYİ VAHİD FORMA OLUR?

Vahid məktəbli formalarının satışı artıq başlayıb. Hər il olduğu kimi bu dəfə də valideynlər tərəfindən müəyyən narazılıqlar ifadə edilir. Tikiş fabrikləri isə qıtlıq və problem yaşanmayacağını iddia edirlər.

İLHAMƏ ƏBÜLFƏT

Yeni tədris ilinin başlamasına az qalıb. Təbii ki, valideynlər övladlarının məktəbə getməsi üçün forma, çanta, dərs ləvazimatı almağı planlayırlar.

Nazirlər Kabinetinin qərarına əsasən, 2023-2024-cü tədris ilində ölkənin hər bir ümumi təhsil müəssisəsi üzrə vahid məktəbli geyimi tətbiq ediləcək.

Artıq Elm və Təhsil Nazirliyinin bölgələr və məktəblər üzrə sifarişi əsasında istehsala və satışa start verilib.

Qeyd edək ki, ötən tədris ilində hər bir ümumi təhsil müəssisəsinin Pedaqoji Şurası bununla bağlı müvafiq qərar qəbul edib. Hər bir müəssisə mart ayına qədər Pedaqoji Şura təşkil edərək dörd formadan birini məktəbli forması olaraq seçib.

Eyni zamanda, Nazirlər Kabinetinin qərarında qeyd olunur ki, məktəblər üçün forma dörd rəngdə nəzərdə tutulub.

BİR MİLYONDAN ÇOX ŞAGİRDƏ FORMA ÇATACAQ?

Nəzərə alsaq ki, ölkəmizdə təxminən bir milyondan çox şagird var, onlar üçün formaların tikilməsi də asan başa gəlmir.

"Bakı Tikiş Evi" Açıq Səhmdar Cəmiyyətinin satış şöbəsinin müdiri Etibar Əzimovun sözlərinə görə, qurum tərəfindən məktəbli formalarının satışı ilə bağlı Bakı şəhərində müxtəlif ərazilərdə məntəqələr yaradılıb: "Hazırda satışla bağlı paytaxtda 10 məntəqə mövcuddur. Bundan əlavə, Astara, Cəlilabad, Lənkəran, Qəbələ, Qax və İsmayıllıda mağazalarımız fəaliyyət göstərir. Bir neçə günə digər mağazalarda da satış mərkəzi açılacaq. Artıq satışlar başlanılıb".

"BU İL PROBLEM YAŞANMAYACAQ"

E.Əzimov qeyd edib ki, ötən tədris ili üçün formaların ölçülərinin tapılmaması ilə bağlı yaranan problem bu il yaşanmayacaq: "Keçən tədris ilində məktəbli formalarının istehsalı ilə bağlı qərar gec verildi və problem yarandı. Forma yun və pambıqdan tikilir. Təbii parçaların istehsalı ilə bağlı plan da bir il əvvəldən verilir. Digər tərəfdən, ötən il istehsalçı tək biz idik. Nəticədə lazımi qədər parça tapa bilmədik və nə bacardıq, onu istehsal etdik. Biz özəl müəssisəyik və başqa öhdəçiliyimiz var. Bu il isə məktəbli forması istehsal edən şirkətlərin sayı artıb, bu, yaxşı haldır".

E.Əzimov vurğulayıb ki, yeni tədris ili üçün parçalar qış ayında sifariş verilib: "Formanın parçası Türkiyə və Belarusdan gəlir. Artıq xammal gəlib və bütün qışı paltarları tikmişik. Valideynlər ASC-in paytaxtdakı 10 məntəqəsində və regionlardakı satış mərkəzlərimizdən bütün ölçü, rənglərdə olan məktəbli formalarını əldə edə bilərlər. Əvvəlki illərdə məktəbin açılışına bir neçə gün qalmış valideynlər gəlirdi və sıxlıq olurdu, nəticədə malları çatdırmaq olmurdu. Amma artıq əhali formaları indidən almağa başlayır".

SOSİAL ƏDALƏT PRİNSİPİ

Təhsil eksperti Nadir İsrafilovun sözlərinə görə, şagirdlərin ümumiyyətlə standart formaya ehtiyacı olub-olmaması ilə bağlı fərqli mülahizələr var: "Məktəbli forması şagirdlərin təhsil aldıqları müəssisədə, eyni zamanda, ictimai həyatda öz fəaliyyətlərinə və davranışlarına məsuliyyətlə yanaşmalarında, cəmiyyətdə özlərinə qarşı hörmət və rəğbət hissi oyadılmasında, bütövlükdə məktəbin nüfuzunun artmasında əhəmiyyətli rol oynayır. Məktəb hərənin bir cür fərqlənmək istədiyi, maddi vəziyyəti ilə öyünmək, seçilmək yeri deyil. Vahid məktəbli formasının əsas mahiyyəti uşaqlar arasında sosial bərabərliyin təmin edilməsidir. Əgər şagird görürsə ki, hansısa məktəbin şagirdi geyimi ilə ondan üstündür, burada sosial ədalətdən danışmaq olmaz. Nəzərə alaq ki, fərqli formalar uşaqlara mənfi təsir göstərir və onlarda əskiklik kompleksi yaradır. Bir sıra ölkələrin dövlət məktəblərinin əksəriyyətində vahid forma mütləqdir".

Etibar Əzimov

Nadir İsrafilov

"FORMANIN DÖRD CÜR OLMASI DA DOĞRU DEYİL"

Nadir İsrafilov əlavə edib ki, 2020-ci ildən ölkə məktəblərində vahid məktəbli forması tətbiq olunmalı idi. Lakin koronavirus pandemiyası başladı və işlər yarımçıq qaldı. Ekspertin sözlərinə görə, formanın dörd cür olması da doğru deyil: "Əgər təhsildə bütün ölkə üzrə vahid dövlət standartları tətbiq olunursa, belə standartlar nəyə görə məktəbli formasına da şamil edilməməlidir? Digər tərəfdən il ərzində bir məktəbdən digərinə xeyli sayda şagird yerdəyişmələri edilirsə, onda bir forma digəri ilə əvəz edilməlidir? Milli Məclisin vahid məktəbli geyimi ilə bağlı "Ümumi təhsil haqqında" qanuna etdiyi dəyişikliyə əsasən, Azərbaycanda ümumtəhsil müəssisəsində təhsilalanlar üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş vahid geyim forması tətbiq edilə bilər. Hər ali məktəbin, özəl lisey və gimnaziyaların loqosu olduğu kimi, ayrı-ayrı məktəblərin də fərqlənmə nişanlarını həmin formalarda əks etdirmək olar. Əgər hər məktəb dörd fərqli eskizdən birini seçəcəksə, bunun nəyi vahid forma olur?"

Ekspertin sözlərinə görə, "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"nə yenidən baxılmalı, "geyim forması hər bir məktəbin öz nizamnaməsi ilə müəyyən olunur" maddəsi dəyişdirilməlidir. Əgər diqqət ölkə üzrə vahid formanın tətbiq edilməsinə yönəlibsə, hər məktəbin müstəqil seçimi müxtəliflik yaradar ki, bu da artıq ayrılıqda götürülən məktəbin forması hesab edilə bilər.

QIZLAR ÜÇÜN

OĞLANLAR ÜÇÜN

BƏS QİYMƏTLƏR NEÇƏYƏDİR?

Məktəbli formalarının satışı ilə məşğul olan mağazanın təmsilçisi Ruzbek Müqaddami deyir ki, artıq məktəbli forması üçün müraciət edənlər var: "Bakıda - Nərimanov, Xətai, Nizami, Yasamal, Binəqədi, Sabunçu rayonlarında və Gəncə şəhərində iki ünvanda müştərilərə xidmət göstəririk". Yeni məktəbli formalarında bütün ölçülərdə uzunqol və qısaqol köynəklərin qiyməti 15 manata, şalvar və ətək 25 manata, jaketlər isə 30 manata təklif olunur".

“AZƏRBAYCANIN Xalq artisti kimi gəlmişəm”

Nəsibə Abdullayeva: “40 ildən çoxdur ki, Azərbaycan mahnılarını ifa edirəm. Bu mahnıları ifa edərkən heç vaxt hər hansı bir mükafat haqqında düşünməmişəm. Bu musiqilər doğulduğum gündən dilimdədir. Nə qədər ömrüm varsa, bu mahnıları sevəcək və ifa edəcəyəm”.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Heydər Əliyev Sarayının səhnəsi çoxdan belə qələbəlik yaşamamışdı. Özbək sənətçiləri Bakıda keçirilən Özbəkistan Mədəniyyət Günləri ilə yayın sükutunu pozdular. Səhnəyə bir-birinin ardınca çıxan tanınmış müğənnilər həm özbəklərin folklor nümunələrini, həm Azərbaycan korifeylərinin mahnılarını, həm də klassika ifa etdilər.

Özbəkistan və Azərbaycanın Xalq artisti Nəsibə Abdullayeva səhnədə görünəndə isə alqışların ardı-arası kəsilmədi. Axı tamaşaçılar estrada ulduzunu illərin uzaqlığından - “Qaragöz boy-boy” mahnısını ifa etdiyi rəngsiz televizor ekranından tanıyırlar. İllər sonra müğənni repertuarına azərbaycanlı ifaçıların “Səndən nigaranam”, “Bəri gəl”, “Sən gəlməz oldun”, “Sevirəm de” kimi bir-birindən məşhur mahnılarını da daxil edərək yüksək şövq və özünəməxsus tərzdə ifa edir. “İstəyirdim mənim özüm üçün mahnı yazılsın”, - deyə həmişə azərbaycanlı bəstəkarların onun adına mahnı yazacağı günü də səbirsizliklə gözləyib. Budur, həmin gün gəlib çatdı: Nəsibə Abdullayeva bəstəkar Faiq Sücəddinovun məhz onun üçün yazdığı “Qarabağ” mahnısı ilə salonu coşdurdu. Səsi dalğa-dalğa yayıldıqca uşaqlıq illərimizi yada saldı, nostalji yaşatdı...

ƏN LAYİQLİ NAMİZƏD - NƏSİBƏ ABDULLAYEVA

Nəsibə xanımla yaxından tanışlığa jurnalist həmkarım Aida Eyvazlı vəsilə oldu. O, müğənnini əsl Azərbaycan qonaqpərvərliyi ilə evinə qonaq çağırmışdı.

Nəsibə xanım keçən il təltif olunduğu Azərbaycanın Xalq artisti fəxri adının sevincini bölüşdü. Xatırladaq ki, o, hələ 31 yaşında ən gənc ifaçı kimi Özbəkistanın Xalq artisti adına layiq görülüb. Prezident İlham Əliyev dost ölkədə rəsmi səfərdə olarkən dövlət başçımızın şərəfinə təşkil olunan musiqili proqramlarda Nəsibə xanım da iştirak edib. Əsas konsertdən sonra hər iki Prezidentin - Şavkat Mirziyoyev və İlham Əliyevin səhnə arxasında Özbəkistanın sənət adamları ilə görüşü estrada ulduzunun taleyində yeni səhifə açıb: ”Biz belə qərara gəlmişik ki, Azərbaycanın və Özbəkistanın artistlərini fəxri adlarla mükafatlandıraq”, - deyə hər iki Prezident bildirib. Özbəkistan Prezidenti “Mütəxəssislərlə məsləhət edib, belə qərara gəlinib ki, bu ada ən layiqli və birinci namizəd Nəsibə Abdullayevadır”, - deyib. Azərbaycan Prezidentinin “Müstəqillik Günündə Nəsibə xanımı təltif edərik” sözləri isə müğənnini qürurlandırıb. Dövlət başçılarının qərarı xalqın müğənniyə olan sevgisinin rəsmən təsdiqinə çevrilib: “Mən Azərbaycanı, Azərbaycan musiqisini çox sevirəm. Azərbaycan xalqı zəngin musiqi xəzinəsinə malikdir. 40 ildən çoxdur ki, Azərbaycan mahnılarını ifa edirəm. Bu mahnıları ifa edərkən heç vaxt hər hansı bir mükafat haqqında düşünməmişəm. Bu musiqilər doğulduğum gündən dilimdədir. Nə qədər ömrüm varsa, bu mahnıları sevəcək və ifa edəcəyəm”.

“HEÇ VAXT ÖZÜMÜ ŞOU-BİZNESDƏ GÖRMƏMİŞƏM”

Nəsibə Abdullayeva mahnıları ilə təkcə vətənində və Azərbaycanda deyil, bütün Orta Asiyada və bir çox dünya ölkələrində populyarlaşan estrada ulduzudur. Onun mahnıları, səsi milyonlarla dinləyicinin qəlbini fəth edib. Müğənninin repertuarı heyrətamizdir - müxtəlif dillərdəki mahnıları bütün dünyada pərəstişkarlarını özünə cəlb edir. Musiqi albomlarındakı bəzi şeirlərin və musiqilərin müəllifi də özüdür. “Heç vaxt özümü şou-biznesdə görməmişəm, həmişə də belə qalacağam. Başqa cür ola bilmərəm” fikirlərini isə bütün parlaq yaradıcılığı təsdiqləyir.

“Rübabə Murdova ilə Nəsibə xanımın ruhunda yaxınlıq var”, - deyə Aida xanım söhbətə qarışır: “Rübabənin yaradıcılığı Nəsibə xanım üçün ən gözəl məktəb olub. Bu gün də onun mahnılarının ən gözəl ifaçısıdır. Səslərində, ruhlarında da uyğunluq var”. Atası Malik qızını kiçik yaşlarından musiqiyə aludə edib. Evlərində heç bir məclis musiqisiz ötüşməyib. Gözəl musiqi duyumu olan atası bir neçə alətdə ifa etməyi bacarırdı. Musiqi balaca qızcığazın həyatını yeni rənglərlə doldururdu.

“MƏNİM HEÇ VAXT YÜKSƏK SƏSİM OLMAYIB”

Nəsibə orta məktəbi bitirib attestat alanda Memarlıq və İnşaat İnstitutuna daxil olmağı planlaşdırırdı. Lakin tale onun üçün başqa qərar verdi. Gənc qız tezliklə musiqi müəllimi oldu və bu iş ona bir çox müsbət emosiyalar gətirdi. Daşkənddəki A.Kadiri adına Mədəniyyət İnstitutunu bitirdikdən sonra Dövlət Filarmoniyasında çalışmağa başlayır.

90-cı illərdən bəri sənətçi ən populyar və sevimli ifaçılardan birinə çevrilir. Onun yaradıcılığında xalq vokal ənənələri, eləcə də müasir musiqi texnikası birləşirdi. Gözəl ritmik mahnılar pərəstişkarlarının qəlbində xoş əks-səda doğururdu. Özbək, fars, ərəb, tacik, Azərbaycan, rus, krım-tatar dillərində oxuduğu mahnılar sərhədləri aşdıqca onu da sevdirirdi.

N.Abdullayeva nəinki populyar müğənni oldu, həmçinin Konservatoriyada çalışaraq gənc musiqiçilərə estrada sənətinin sirlərini öyrənməyə kömək etdi. Hazırda isə musiqi sənətini özünə peşə seçən gənclərin qəbul və buraxılış imtahanlarında iştirak edir. “İndi dövr dəyişib. Daha çox qışqıran müğənnilərin zamanı gəlib. İndi kim yüksəkdən oxuyursa, “Bunun səsi güclüdür” deyirlər. Mənim heç vaxt yüksək səsim olmayıb. Həmişə hisslə oxumaq istəmişəm”, - müğənni özünün ifaçılıq tərzini xarakterizə edir.

GEC OLDU, AMMA OLDU...

Nəsibə Abdullayeva onun üçün məhz böyük Zəfərimizdən bəhs edən “Qarabağ” mahnısının yazılmasından çox məmnundur: “Faiq Sücəddinov deyir ki, bundan sonra sənin üçün mahnılar yazacağam. Nəhayət, bu, mənə qismət oldu, mənim üçün Azərbaycanda mahnı yazıldı. Gec oldu, amma oldu...”

Nəsibə xanım Bakı səhnəsində Azərbaycan mahnıları ilə çıxış etməsinə də aydınlıq gətirdi: “Mən Özbəkistandan Azərbaycana Azərbaycanın Xalq artisti kimi gəlmişəm. Ona görə səhnədə Azərbaycan dilində oxumalı idim. Azərbaycanlı pərəstişkarlarım bunu gözləyirdi”.

N.Abdullayeva bu gün də özünə və böyük sənətinə hörmət və sevgi hissini qoruyaraq gözəl mahnıları ilə çoxsaylı dinləyicilərini məftun etməkdə davam edir.

Azərbaycanlı pərəstişkarları isə estrada ulduzunun yolunu həmişə sevərək gözləyir...

ÜÇ ƏSRİN QƏZETİ
Kaspi
12 AVQUST ŞƏNBƏ 2023

DÖYÜŞƏ MARAĞIMIZ ARTIR

Azərbaycanda qarışıq döyüş növlərinin böyük potensialı var. Ən azı ona görə ki, döyüş idman növlərində ölkəmiz beynəlxalq yarışlarda, adətən, uğurlu nəticələr əldə edib.

Son zamanlar Azərbaycanda qarışıq döyüş növləri (MMA) üzrə yarışlara maraq artıb. Ümumən, belə turnirlər dünyada çox populyardır və kifayət qədər gəlirli hesab olunurlar. Azərbaycanda artan marağın səbəbi isə artıq ölkəmizin də bu yarışlarda təmsil olunmasıdır.

UFC SIRALAMASINDA ALTINCI

Qarışıq döyüş növləri üzrə ən böyük təşkilat UFC-dir. ABŞ təşkilatı bu sahə üzrə bir nömrədir. Ölkəmizin ilk UFC təmsilçisi Nəriman Abbasov olub. 2022-ci ilin sentyabrında braziliyalı İsmael Bonfimlə üz-üzə gələn döyüşçümüz debüt görüşündə məğlubiyyətlə üzləşib. İddiaçılar seriyası döyüşündə yenilgi onun UFC-də davam etməsinə mane olub. Ümumilikdə Nəriman peşəkar karyerası ərzində 28 qələbə qazanıb, dörd dəfə məğlub olub.

Hazırda aktiv olaraq UFC turnirlərində Azərbaycan bayrağı altında çıxış edən yeganə idmançı Rafael Fiziyevdir. Yüngül çəkidə çıxış edən döyüşçü sıralamada altıncıdır. Əvvəllər Qırğızıstanı təmsil edən Fiziyev 2022-ci ildən Azərbaycan adına yarışır. İlk dəfə ölkəmizin bayrağı altında keçən il döyüşən Rafael braziliyalı adaşı Rafael dos Anyosla qarşılaşıb və qələbə qazanıb. Lakin o, son döyüşündə ABŞ idmançısı Castin Geyci ilə qarşılaşmadan məğlub ayrılıb. Ümumiyyətlə, Rafaelin UFC-də 12 qələbəsi və iki məğlubiyyəti var.

“BELLATOR” VƏ “RİZİN”DƏ UĞURLAR

Azərbaycan “Bellator” və “Rizin”də də uğurla təmsil olunur. Müvafiq olaraq ABŞ və Yaponiya mərkəzli şirkətlərin hər ikisində MMA qaydaları əsas götürülür. Bu şirkətlər bir-birinə yaxındırlar və əməkdaşlıq edirlər. Bəzən “Bellator”la müqaviləsi olan idmançılar “Rizin” yarışlarında döyüşürlər və ya əksinə. “Bellator”da Azərbaycan təmsilçisi Tofiq Musayevdir. Karyerası ərzində onun 20 qələbəsi və beş məğlubiyyəti var. Martda Aleksandr Şabli ilə döyüşdə zədələnib texniki nokautla uduzan idmançı özünü toparlamağı bacarıb. Bu yaxınlarda o, “Super Rizin 2” turnirində yaponiyalı Akira Okadanı məğlub etməyi bacarıb. “Rizin”də isə iki döyüşçümüz gücünü göstərməyə çalışır. Bunlar Vüqar Kərəmov və Mehman Məmmədovdur. Vüqar Kərəmov da Tofiq Musayev kimi “Super Rizin 2” turnirində uğurlu nəticə əldə edib. O, kəmər döyüşündə yaponiyalı Mikuru Asakuranı boğucu fəndlə məğlubiyyətə uğradıb. Bu qələbə üçün Vüqara cəmi iki dəqiqə 40 saniyə kifayət edib. Beləliklə, V.Kərəmov “Rizin”in yüngül çəkidə çempionu adını qazanıb. Ümumilikdə o, peşəkar karyerası ərzində 23 döyüşün 19-da qalib gəlib, dörd dəfə məğlubiyyətlə üzləşib. Mehman Məmmədov isə nisbətən az döyüş keçirib və nəticələri digərləri ilə müqayisədə daha aşağıdır. O, ümumilikdə 12 peşəkar döyüşünün yarısını qələbə ilə başa vurub, yarısını məğlubiyyətlə bitirib.

Qarışıq döyüş növlərinə daxil olmasa da, Çingiz Əlləzovun “One Championship”də çıxışını da qeyd etmək lazımdır. Kikboksçu bu turnirdə keçirdiyi altı döyüşün beşində qələbə qazanıb və yalnız bir dəfə məğlubiyyətlə üzləşib. “One Championship”in yüngül çəkidə mütləq çempionu bir neçə gün əvvəl “ONE Fight Night 13”də ermənistanlı Marat Qriqoryana qalib gəlib.

QARIŞIQ DÖYÜŞ NÖVLƏRİ ÜÇÜN BÖYÜK POTENSİAL

Artıq Azərbaycanda da döyüş gecələrinin təşkil olunması mütəmadi xarakter alır. Mayda Bakıda “New Generation Fighting 2” Peşəkar MMA Kikboksing gecəsi keçirildi və orada bir sıra gənc idmançılar gücünü göstərmək fürsəti əldə etdilər. Avqustun 18-də Qazaxıstanın bir nömrəli liqası “Octagon” Bakıda turnir keçirəcək.

Noyabrın 4-də isə “Rizin” təşkilatının Bakıda turnir təşkil edəcəyi bildirilir. Düzdür, hələlik bununla bağlı rəsmi açıqlama yoxdur. Lakin müxtəlif mənbələr təşkilatın prezidenti Nobuyuki Sakakibaraya istinadən bununla bağlı məlumat yayıblar.

Ümumən, Azərbaycanda qarışıq döyüş növlərinin böyük potensialı var. Ən azı ona görə ki, döyüş idman növlərində ölkəmiz beynəlxalq yarışlarda, adətən, uğurlu nəticələr əldə edib. Maraq böyükdür, tez-tez peşəkar döyüş gecələrinin təşkili, xaricdən idmançıların cəlbi ilə yerli idmançıların ustalıq səviyyəsini artırmaq olar.

“NAR” ŞƏHİD ÖVLADLARI ÜÇÜN TƏŞKİL OLUNAN “YAŞAT” DÜŞƏRGƏSİNƏ DƏSTƏK OLDU

“Nar” “YAŞAT” Fondunun və “ASAN Könüllüləri” Təşkilatının birgə təşkilatçılığı ilə şəhid övladları üçün həyata keçirilən üçüncü “YAŞAT” düşərgəsində iştirak edib. “Nar”ın da dəstəkçilərindən olduğu layihənin əsas məqsədi torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhid övladlarının yay tətillərinin səmərəli keçirilməsinə və onların şəxsi inkişaflarına dəstək olmaqdır.

Mobil operator düşərgənin 3-cü həftəsində 40-dan çox iştirakçı üçün Diksiya Akademiyası ilə birgə Azərbaycan dilində səlis nitq bacarıqları üzrə interaktiv təlim təşkil edib, uğurlu çıxışların ən vacib elementləri öyrədilib. Təlimin sonunda iştirakçılara “Nar” tərəfindən dəyərli hədiyyələr təqdim olunub.

Qeyd edək ki, “Nar” şəhid övladlarının təhsilinə dəstək istiqamətində müxtəlif təqaüd proqramları həyata keçirmiş və sosial layihələrə müəlliflik etmişdir. Layihələr haqqında daha ətraflı məlumatı nar.az/projects səhifəsindən əldə edə bilərsiniz.

“NAR” HAQQINDA:

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.